Gözdəyməyə qarşı nə edim?

İslam gözdəyməyə qarşı hansı məsləhətləri verir?
Müəllif: Zibeydə Xudayi
Bu kitab hədiyyə olunur Həzrət Fatimə övladı Həzrət Mehdinin bir baxışına!
Cümə günləri sübh, aşiqləri göz yaşı içində onun baxışı intizarındadırlar və səmimi qəlbdən oxuyurlar: "Və unzur iləyna nəzrə rəhimətən nəstəkmilu bihəl-kəramətə indək." (Nüdbə duasından)

# Ön söz

Gözdəymə dünyada yayılmış bir inancdır

Qədim dövrdən insanları düşündürən inanclardan biri sirli təsirə malik olan gözdür. Gözdəymə deyəndə insanlar fövqəl-elmi bir hadisə nəzərdə tuturlar. Gözdəymə həqiqətdir və buna şübhə etməyə əsas yoxdur. İslam dini gözdəymə hadisəsini qəbul edir. Quran ayələri, hədis və rəvayətlər müxtəlif şəkildə gözdəyməni təsdiqləyir. Allah-taala buyurur: "Göz, baxış təsiri bir həqiqətdir, hətta dağların zirvəsini uçurar." ("Musnədi-Əhməd", c. 1, s. 274; "Tibbul-Əimmə", s. 302) Digər tərəfdən dini adətlərə qarışmış ənənələr mövcuddur. Belə ənənələr və etiqadlar da gözdə müəyyən enerji olduğunu təsdiqləyir.
Qeyd edək ki, uzun əsrlər boyu bəd nəzər barədə xürafi fikirlər də yaranıb. Gözdəymə həqiqət olduğu halda bu hadisə şişirdilib, təhrif olunub.
Bəziləri gözdəymə hadisəsində ifrata vararaq onun təsirini böyüdüblər. Düşünüblər ki, göz enerjisi həyatın bütün sahələrinə təsir göstərə bilər. Hətta öz gücsüzlüklərini, tənbəlliklərini, düşüncəsiz hərəkətlərini başqalarının bəd nəzəri ilə əlaqələndiriblər. Hətta bəd nəzərin təsiri altında olduqlarını sübuta yetirmək üçün həqiqəti gizlədib, uğurlarını pərdələyiblər. Bəziləri də gözdəymə hadisəsini kiçiltməyə cəhd göstəriblər. İddia ediblər ki, əslində belə bir təsir yoxdur və cahil insanlar xürafata uyaraq buna inanır. Amma belələri çox azdır.
Belə görünür ki, gözdəymə, bədnəzər barədə ifrat və təfritçiliklər, tərəfdarlıq və müxalifətçiliklər bu hadisənin metafizik hadisə olması ilə bağlıdır. Yəni bu hadisə fiziki hadisə yox, ruh adlanan fövqəltəbii bir qüvvə ilə əlaqəlidir. Təbii ki, təcrübi elmlərə, təbiət elmlərinə daha çox bağlanan insanlar bunu asanlıqla qəbul etməyib. Onlar heyrətlə deyirlər ki, insan gözü ilə necə zərbə vura bilər?! Gözün təsiri onları təəccübləndirir. Bəziləri də bəd nəzər qorxusundan həyəcanlanaraq çıxış yolu axtarmış və düzgün yol tapmadığından xürafat ardınca getmişlər. Bəd nəzərdən qorunmaq üçün metal nişanələrə, düyünlənmiş saplara, rəngli şüşələrə, tilsim və cadulara üz tutmuşlar. Bəşər tarixində ayrı-ayrı dövrlərdə gözdəyməyə münasibət və onun qarşısını almaq üsulları fərqli olub. Təbii ki, yaşadığımız texnologiya əsrində də münasibət fərqlidir.
Müəllif ölkə xaricinə, Asiya və Avropaya səfərlərində bəd nəzərlə bağlı bir çox xürafatlarla rastlaşıb. Xüsusilə mədəniyyətinə üz tutduğumuz avropada gözdəyməyə ifrat xürafi münasibət var. Modern həyat yaşayan insanlar gözün təsirindən ağıla gəlməyən dərəcədə qorxurlar. Müxtəlif rənglərə üz tutur, boyunbağılar asır, qolbaqlar taxır, hətta virtual aləmdə, saytlarda bəd nəzərin qarşısını almaq üçün müzakirələr açırlar. Qətiyyətlə deyə bilərik ki, bu gün avropada şər ruhların qovulması, bəd nəzər ən aktual mövzulardandır.
Əllamə Təbatəbai xürafatla bağlı yazır: "İnsan ən qədim dövrdən bu günə qədər xürafatdan təsirlənib. Bəziləri düşünürlər ki, xürafatın vətəni şərqdir. Amma bu həqiqət deyil. Əgər qərblilər şərqlilərdən xürafatçıl olmasalar da ən azı şərqlilər qədər xürafatdan təsirlənirlər." ("Mənəviyyati-Təşəyyö", s. 246)
Bir şərq ölkəsi olaraq İranda da gözün dağıdıcı təsirinə etiqadların uzun tarixi var. Gözdəymənin qarşısını almaq üçün ilan fəqərəsindən tutmuş kaftar gözünədək vasitələrə əl atıblar. Yumurta sındırmaq, paltarı yandırmaq xürafat qarşısında insanların seçdiyi vasitələrdir və bu təssüf doğurur.

Təəccüblüdür ki, dini təlimlərdə gözdəymə haqqında kifayət qədər məlumat verildiyi halda bu günə qədər cəmiyyətdə lazimi araşdırmalar aparılmayıb, xürafata meydan açıq qalır. Müəyyən araşdırmalar aparılsa da, müəyyən məqalələr yazılsa da, bu sadəcə gözdəymə hadisəsi barədə məlumat xarakteri daşıyır. Amma “görünən kəndə bələdçi lazım deyil”, deyiblər. Təəssüf ki, bu günə qədər gözdəymə ilə bağlı xürafatları aradan qaldırmaq üçün dini təlimlərin köməyindən istifadə olunmayıb.
Bəd nəzər, gözdəymə ilə bağı bu qədər söz-söhbət ortada ikən təbii ki, qarşımızda vəzifələr dayanır. Bu sahədə məsuliyyət daşıyanlar insanları xurafatdan çəkindirməklə yanaşı cəmiyyətə onun elmi izahını verməlidirlər. Qeyd etmək lazımdır ki, müəllif mövzu ilə bağlı bir çox çıxışlar, müşavirələr dinləmişdir. O İmam Rizanın (ə) hərəmi, xanım Məsumənin (s) hərəmi, müqəddəs Cəmkəran məscidi və başqa müqəddəs yerlərdə xalqın sualları ilə qarşılaşmış və bunun məhz bəd nəzərə düzgün olmayan münasibətlə əlaqələndirmişdir. Təəssüf ki, bu mövzuda müsdəqil bir kitab yazılmamışdır. Əgər mövzu lazımi həddə araşdırılsaydı, cəmiyyətə tövsiyələr verilsəydi problem həll olunardı. Bu sahədə zəruri kitabın olmaması müəllifi həmin işi görməyə sövq etdi. Bu mövzuda yazılmış məqalələr ayrıca kitab tərtib olunması üçün stimul oldu. Xüsusi ilə Cənab Doktor Mehdi Əkbərnejadın elmi araşdırması, onun həmkarı Ruhullah Muhəmmədinin yazısı mənim bu mövzuda yazmağım üçün kömək oldu. Bir növ mövzuya giriş üçün kodlar əldə etdim. (Bu mövzuda məqalə şəmsi 1388-ci ildə yazılmışdır. Məqalədə Quran və rəvayət əsasında gözdəymə mövzusu nəzərdən keçirilir.)
Bu kitabda təlaş göstərilir ki, uzun illər boyu xalq arasında gözdəymə ilə bağlı yaranmış ənənələrin etiqada çevrilməsinə diqət yönəldilsin. (Gözdəymə barədə məqalə, wikifeqh.ir) Biz bu mövzuda İslam təlimlərində yer almış məlumatları nəzərdən keçirəcəyik. Peyğəmbər və din rəhbərlərinin buyuruqları əsas meyarlar kimi götürüləcək. Çoxları bu mövzuya dinin münasibətini bilmək istəyir. Siz bu kitabı mütaliə etməklə gözdə olan enerjinin gücü ilə yanaşı ona qarşı necə dayanmaqla bağlı tövsiyələrlə tanış olacaqsınız.
Əssəlamu əla mənittəbiəl Huda
Zibeydə Xudai
Fərvərdin 1393
Müqəddəs Qum şəhəri

## Kitab nə üçün yazılıb?

Məqsəd mövzu ilə bağlı yanlış düşüncə və xürafatı aradan qaldırmaqdır. Tövhid çağırışçılarının əsas vəzifələrindən biri xürafatın aradan qaldırılması olub. Onlar insanların suallarına cavab verib şübhələri aradan qaldırmaqla yanaşı insanların düşüncəsini işıqlandırıblar.
Müəllif hövzə tələbəsi olaraq göz, baxış, gözün enerjisi, gözün təsiri mövzusunu araşdırmağı özünə vəzifə sayıb. Araşdırmada ayə və rəvayətlər əsasında gözdəymə hadisəsini aydınlaşdırmağa cəhd göstərilib. Gözdəymə bir həqiqətdir, biz onun xurafat əlavələrini təmizləməliyik.
Xurafat barədə
Xurafatın köklərini insanların etiqadlarında axtarmaq lazımdır. İstər dini, istər qeyri-dini inanclarda xürafat təhlükəlidir. Xürafat nəinki dini həqiqi yolundan çıxarır, bütünlüklə dini caməəyə zərbə vurur. Xürafat inkişaf və çiçəklənmənin qarşısını alır.
Alim və tədqiqatçıların nəzərincə xürafatın çevrəsi olduqca genişdir. Bizim savadlı və savadsız dediyimiz hər iki zümrədə bu mövzuya maraq var.
Xurafat nədir? Xuarafat ərəb sözüdür. Ərəblər həqiqəti olmayan, dəyərsiz bir əhvalatı xürafat adlandırıblar. Qeyd edək ki, xüsusilə səmavi kitablar və tarixdə yer almış ən böyük xürafatlarda yəhudilərin əli var. (Hövzənin xüsusi buraxılışı, xürafatla mübarizə, 3 cild, şəmsi 1388)
Dini və qeyri xürafat nümunələri
1.Hələ də Qərbdə məsihilər arasında nərdivan altından keçmək üç üqnumun təhqiri kimi dəyərləndirilir. Bəziləri inanırlar ki, bu hərəkət insana uğursuzluq gətirir.

2.Birinci dünya müharibəsinin qızğın çağında belə bir şayiə yayılmışdı ki, əgər bir kibrit çöpü ilə üç siqaret yandırılsa üçüncü şəxs ölməlidir. Bu xurafat həmin dövrdə kibrit fabriklərinə böyük fayda verirdi.
3.Hindistanda qadın körpəsini qucağına alanda onu gözdəymədən qorumaq üçün iki qaşının arasına rəngli xal qoyurlar. (Hövzənin xüsusi buraxılışı, xurafatla mübarizə...)
4.Bəzilərində belə bir əqidə var ki, qız xörək bişirərkən mahnı oxuyarsa ərsis qalır.
5.Orta əsrlərdə Avropada xəstələrlə amansız rəftar olunurdu. Bəzi xəstəliklərə görə keşişlər xəstələri döyürdülər ki, guyə bədənə daxil olmuş cinlər ondan uzaqlaşsın.
6.Qaranlıq cahiliyyət dövründə xurafat zirvə nöqtəsinə çatdı. Dəvə saxlayanlar arasında belə adət var idi ki, dəvələrin sayı 100-ə çatanda dəvənin bir gözünü kor edərdilər. Dəvələrin sayı 100-ə çatanda onun iki gözünü kor edərdilər. Bununla gözdəymənin qarşısını alacaqlarını düşünürdülər. İslamın zühurundan sonra həzrət Peyğəmbər onları bu əməllərdən çəkinməyə çağırdı. 1400 il öncə İslam peyğəmbərinin əmri ilə heyvanlarla amansız rəftar edilməsi qadağan olundu.
Bir sözlə bəşər tarixində ən çox yayılmış xürafatlardan biri bəd nəzər, göz dəyməsidir. Hətta xalq arasında belə inam var ki, bəzilərinin gözündə fövqəladə güc var və bir baxışla insanı məhv edə bilərlər. Gözdəymə ilə bağlı həqiqət xürafata elə qarışıb ki, xürafatı həqiqətdən ayırmaq çətin olub. Təkcə müsəlmanlar arasında yox, bütün dünyada, o cümlədən Qərbdə xürafat rüsvayçı həddə cəmiyyəti bürüyüb.

## İslam xürafata qarşıdır

Xürafat bütün peyğəmbərlərin, o cümlədən İslam peyğəmbərinin dövründə olub. İlahi peyğəmbərlərin əsas vəzifələrindən biri xürafatla mübarizədir. Xürafat olan yerdə dini dəyəri gündəmə gətirmək mümkün deyil. Buna görə də öncə xürafat aradan qaldırılmalıdır. Bütün ilahi peyğəmbərlər insanların fitrətini oyatmağa, onları düşüncəyə sövq etməyə çalışıb.
İslam peyğəmbəri süd anası olan Həlimə Sədiyyənin yanında idi. Bədəvi həyat yaşayan bu qadın çox mehriban idi. Peyğəmbər öz süd qardaşları ilə birlikdə səhraya getmək istəyəndə Həlimə Peyğəmbəri (s) hazırlamağa başladı. Onun saçlarına yağ çəkdi, gözlərinə sürmə vurdu, şərdən qorunsun deyə boynuna yəmən daşı asdı. O zaman peyğəmbərin üç yaşı olmazdı. Boynundan daşı açıb kənara qoydu. Sonra Həliməyə buyurdu: “ Anacan! Narahat olma. Bu nədir? Məni qoruyan Allahım var. (“Biharul-Ənvar”, c. 15, səh. 392)
Həzrət Peyğəmbərin (s) oğlu İbrahim dünyasını dəyişəndə gün tutulması baş vermişdi. Camaat danışırdı ki, günəş də peyğəmbərin oğlunun ölümünə görə qəmgindir. Həzrət peyğəmbər İbrahimin dəfnindən qabaq camaatı məscidə toplayıb minbərə qalxdı və buyurdu: “Günəş və ay Allahın iki qüdrət nişanəsidir. Günəş və ay kiminsə həyatı və ölümünə görə tutulmaz. Günəş və ay tutulanda Ayat namazı qılın. “Sonra minbərdən düşdü və camaatla birlikdə Ayat namazı qıldılar.” (“Əl-Durrul Mənsur fi Təfsiril-Məsur”, c. 3, s. 20)
İslam peyğəmbəri bir gecə öz yaxınları ilə əyləşmişdi. Bir ulduz hərəkət etdi və bir qədər hərəkətdən sonra söndü. Həzrət peyğəmbər ətrafdakılardan soruşdu: “Cahiliyyət dövründə bu barədə nə deyirdilər?” Cavab verdilər: “Bu böyük bir doğuş və ya böyük bir ölüm nişanəsi sayılırdı.” Həzrət buyurdu: “Bu fəza hadisəsidir. İnsanların ölüm və həyatına aidiyyatı yoxdur.” (“Biharul-Ənvar”, c. 22, s. 155, 156)
Yuxarıda nəql olunan hadisələrdən belə bir qənaətə gəlirik ki, həzrət Peyğəmbər (ə) öz ardıcıllarının, cəmiyyətin diqqətini Allaha yönəltməyə çalışırdı. Varlıq aləminin yaranışı barədə insanları düşündürəcək söhbətlər edirdi.

# Kitabın məqsədi

İnsanların psixoloji sağlamlığı, fiziki baxımdan salamatlığı üçün gözdəymə barədə kitab yazmaq qərarına gəldim. Bu işdə istinadım dini mətnlər, İslam təlimləri, ayə və rəvayətlər oldu. Bu çox əhəmiyyətli mövzudur. Həzrət Peyğəmbər (s) buyurur: Həqiqətən göz dəymə insanı qəbrə, dəvəni qazana salar.” (“Biharul-Ənvar”, c. 63, s. 26) İmam Sadiq (ə) buyurur: “Əgər qəbrlər yarılsa görərsiniz ki, ölənlərinizin çoxu gözdəymədən ölüb. Gözdəymə həqiqətdir.” Başqa bir məqamda Peyğəmbər (s) buyurub: “Gözdəymə həqiqətdir. Hər kəs iman qardaşının əlində olan şeyə təəccüb etsə Allahı yada salsın ki, ona bir zərər dəyməsin.” (“Biharul-Ənvar”, c. 95, s. 227)
Həzrətin nurani kəlamında iki mühüm nöqtə var:
1.Heyrət və təəccüb. İnsan bir şeyi görəndə və ya eşidəndə gözün halı dəyişir.
2.Allahın zikri. Allahı zikr etməklə gözün istehsal etdiyi mənfi enerji aradan qalxır.
Beləcə, gözdəymə, bədnəzər, gözlə cadu qəbul olunmuş bir həqiqətdir. Bu hadisələri inkar etməyə əsas yoxdur. Çoxları bunu öz həyatında təcrübədən keçirib. Biz özümüz gözdəyməyə məruz qalmışıq, eləcə də gözümüzlə mənfi təsir göstərmişik. Bəziləri düşünə bilər ki, bu barədə danışmağın yeri var? İddia oluna bilər ki, bu barədə danışmaqla insanların gözdəymə qorxusunu daha da gücləndiririk. Əslində söhbətin necə təsir etməsi məqsəddən asılıdır. Bizim məqsədimiz gözdəymə ilə bağlı stresi, psixoloji gərginliyi aradan qaldırmaq, onun qarşısnı alacaq düzgün yolları göstərməkdir.

# Bəzi suallar

Qeyd etdik ki, qədim dövrdən gözdə olan böyük enerjiyə etiqad olub. Əksər xalqlar, tayfalar arasında belə əqidə var. Bu barədə əfsanələr yaranıb, zərbülməsəllər deyilib. Ədəbiyyatda bu mövzuya tez-tez rast gələ bilərik. Bütün bunlar insan ruhunda olan böyük enerjidən danışır. Həmin enerjidən sui-istifadə tilsim, cadu, falçılıq bazarını qızışdırır. Göz dəymə ilə bağlı etiqada təkcə cəmiyyətin savadsız təbəqəsində rast gəlmirik. Təhsilli, yüksək elmi dərəcəyə malik insanlarda da belə etiqadlar var. (Şəmsi 1385-ci ildə Tehranda maraqlı bir sosioloji sorğu aparılıb. 18-74 yaş arasında təhsilli insanlar arasında aparılan sorğu göstərib ki, 18-35 yaş arasında olanların gözdəyməyə inamı yaşı 40-dan yuxarı olanların inamından güclüdür.)
Bütün bunlar onu göstərir ki, insan öz həyatında sirli enerjilərdən bəhrələnir. Eyni zamanda belə enerjilər onu qorxudur.
İbrahimi dinlərdə belə hadisələrə qarşı atılacaq addımların müəyyənləşməsi bir növ təhlükəsizliyin təminidir. Bu barədə bir neçə misal göstərək.
Müasir həyatda ev tikmək üçün əlaqədar orqanlardan icazə almaq lazımdır. Həmin orqanlar tikinti ilə bağlı müəyyən qanunlar qəbul edib və ev tikən şəxs bu qanunlara riayət etməlidir. Əgər riayət olunmasa cərimələrin tətbiq olunması gözlənilir. Əgər məhdudiyyətlərin nə üçün qoyulduğu barədə soruşsaq cavab verilər ki, qanunlar mütəxəssislər tərəfindən cəmiyyətin təhlükəsizliyi üçün tənzimlənib. Bina müəyyən standartlara cavab verməlidir ki, zəlzələ, tufan, sel kimi hadisələrə davam gətirə bilsin.

Və ya Qırmızı Aypara cəmiyyəti bəzən zəlzələ ilə bağlı manevr tədbiri keçirir. Bu zaman insanlar güclü siqnal səsindən həyəcana gəlir. Səbəbi soruşulanda deyilir ki, bu hazırlıq gözlənilən təhlükənin qarşısını almaq üçündür.
Dünya səhiyyə təşkilatı qida məhsulları, dərman pereparatları ilə bağlı qanunlar və məhdudiyyətlər tətbiq edir. Bu məhdudiyyətlərdə məqsəd insanları xəstəlik və ölümün caynağından çıxarmaqdır. Mətbuat və televiziyada xərçəng, QİÇS xəstəliyi ilə bağlı aparılan verilişlər insanları həyəcanlandırsa da bu onların gələcəyi üçün zəruridir.
Müəllif Əhli beyt (ə) xidmətçisi olaraq gözdəymədən danışmaqla insanları həyəcanlandırmaq, diqqəti bu hadisəyə yönəltmək fikirində deyiləm. Əksinə mən insanların psixoloji sağlamlığı üçün bir həqiqət

olan gözdəymə hadisəsinə düzgün yanaşma yollarını araşdırıram. Mən bunu özümə vəzifə bilmişəm və cəmiyyətin gözdəymə ilə bağlı məlumatlandırılması faydalıdır. Quran və məsumların buyuruqlarına əməl etməklə biz bir çox təhlükələrdən qurtara bilərik. Dini göstərişlərdən xəbərsiz qalsaq həyatın ləzzətini, aramlığın nə olduğunu bilmərik. Bu gün sionistlərin fitnəkarlıqları, insan psixologiyası üzərində aparılan təcrübələr diqqətimizdən yayınmamalıdır. Əgər mövzuya belə qurucu şəkildə yanaşsaq günümüzə hakim kəsilmiş süstlüyü, ümidsizliyi, bədbinliyi aradan qaldıra bilərik.

# İlk pəncərə

## Göz ən böyük ilahi nemətdir

Qurani-kərimin "Bələd" surəsinin 8-ci ayəsində buyurulur: "Məgər insan üçün iki göz qərar vermədik?!" (Ələm nəcəl ləhu əynəyn) Quran həyat kitabıdır. Bu kitab insanları düşünməyə çağırır. Quran insanları ilahi nemətlərlə tanış edir. Allahı tanımaqla insan öz həyatından daha çox bəhrələnə bilər. Təbii ki, Allahı tanımaqla yanaşı onun nemətlərini tanımaq lazım gəlir. Ayədə insana göz neməti xatırladılır. Sualın cavabı onun özündədir.

Bu günə qədər gözün necə böyük nemət olması barədə düşünmüşük? Göz beyindən sonar insan orqanizminin ən mürəkkəb üzvüdür. İnsan gözündə 2 milyondan artıq fəal və həssas nöqtə var. İnsan gözündə 120 milyon mikrolif və 70 milyon makrolif mövcuddur. İnsan gözü hər saatda 36 min bayt informasiya toplayır. Göz əldə olunan ümumi məlumatın 85 faizini insanın ixtiyarına verir. Bütün bu heyrətamizliklərə nəzər saldıqda ağıl əmr edir ki, deyək: "Pərvərdigara yoxdur Səndən başqa Məbud, Sən paksan, şübhəsiz mən zalımlardan oldum." ("Ənbiya", 87)

Göz neməti

Gözün funksyaları olduqca böyükdür, quruluşu mürəkkəbdir. İnsan öz gözünün quruluşunu və funksiyalarını lazımca bilsə bu onun Allah qarşısında baş əyməsi üçün bəs edir. Bu araşdırmalar bəşəriyyətin üzünə elm qapıları açır. Mömin insan mərifət gözünü açmaqla ibadətdən aldığı ləzzəti gücləndirir, Allaha bir aşiq olaraq pərəstiş edir. Gözlər hər bir insanın durumunu, daxili vəziyyətini bildirir. İnsanın daxili aləminə onun gözü ilə nüfuz etmək olar. İnsanın qorxusu, eşqi, başqa hisləri onun gözlərindən oxunur. İnsan xəstələndiyi zaman bu xəstəlik onun gözlərində özünü göstərir. Qan azlığı, böyrək çatışmazlığı kimi xəstəliklər göz vasitəsi ilə müəyyənləşdirilə bilər. İnsan gözləri yaranış hikməti və fitrəfə uyğun olaraq bəzi şeylərə maraqlıdır. O nəyisə sevir, nəyəsə nifrət edir. Bəzi görüntülər insan gözünü yorur, bəzi görüntülər onun yorğunluğunu aradan qaldırır. İnsanın dünya ilə rabitəsində göz ən güclü vasitədir. İnsan danışmadan gözü vasitəsi ilə rabitə yarada bilər. İnsan gözəlliyində də gözün xüsusi rolu var. Allah-taala behişt zövcələrini vəsf edərkən onların gözlərini yada salır. Elə həyatda da belədir. Bir insanın gözəlliyindən danışarkən onun gözlərindən başlayırıq. İri, qara nüfuzlu gözlər göz üçün bir tərifdir. Göz Qiyamət günü insan əməllərinə şəhadət verən orqanlardandır. (Bax: Fussilət surəsi, ayə 20) Bəli, göz bir nemətdir. Göz qiyamət günü bir kamera kimi çəkdiklərini ortaya qoyasıdır. Sevgi və nifrət gözdə özünü göstərir. Bir sözlə, göz insan həyatında baş verən hadisələrin əsas izləyicisidir.

İmam Sadiq (ə) Müfəzzələ xitabən buyurur: "Bax, gör insan gözləri minarə üzərində çıraqlar kimidir. Göz insanın baş hissəsində yerləşib ki, daha əhatəli görə bilsin." ("Tövhidi-Müfəzzəl", səh. 61)

İslam bir nemət olaraq gözü yüksək dəyərləndirir. Gözün insanın cism və ruhuna xüsusi təsiri var. "Nur" surəsində bu barədə buyurulur ki, möminlər (harama baxmaqdan) gözlərini yumsunlar; iman əhlinə de ki, nəfs istəklərinə gözlərini qapasınlar…(Bax: "Nur" surəsi, ayə 30, 31)

Aydın məsələdir ki, cismin sağlamlığı qida, halal ruzi, orqanizmin tələblərinə uyğun pak qidalanma ilə təmin olunur. Ruhun sağlamlığında da göz və qulağın xüsusi rolu var.

İnsan göz vasitəsi ilə elmi biliklərə yiyələnir, müxtəlif informasiyalar əldə edir. İslamda "hərim" adlandırılan bir anlayış var. Əslində bütün dünyada bu anlayış müxtəlif ifadələrlə öz əksini tapıb.

Hərim dedikdə yalnız şəxsə məxsus olan fəza nəzərdə tutulur. Əslində hər bir mövcud üçün hədd-hüdud, hərim sərhədləri var. İslamda hərimə malik olan şeylərdən biri göz nemətidir. Bu nemət qarşısında hədlər gözlənildikdə onun dəyəri böyük olur.

Şair Cavad Mühəddisi yazır: Gözləri dəyərdən salan başqalarının hərriminə münasibətdə həddi gözləməmək, başqalarına məxsus olan hərimə nüfuz etməkdir. Göz dəyərli gövhər, böyük ilahi nemətdir. Gözün dəyəri insanın bütün vücudunun dəyərinə bərabərdir. İslam şəriətində bir şəxsin iki gözü çıxarılarsa həmin şəxsə tam bir insanın diyəsi ödənilməlidir. ("Risaleyi-Novin", c. 4, s. 285) Amma insan başqasının hərriminə, evinə, namusuna oğurluq baxarsa və baxdığı zaman vurub onun gözünü çıxararlarsa bu gözün diyəsi yoxdur. Beləcə göz dəyərsiz də ola bilər. İcazəsiz, hədd gözləmədən, harama düçar olaraq başqasının hərriminə yönələn göz günaha batır. ( Mühəddisi, "Əxlaqi-müaşirət", s. 126)

Gözdən lazımınca faydalanmaq üçün, Zəhra Yusifinə nəzər salmaq ləyaqəti qazanmaq üçün, gözə nəzarətdə ilahi eşq, Əhli-beyt (ə) məhəbbətindən kömək almaq lazımdır.

İslamda gözün saflığı və sağlamlığı istedadların çiçəklənməsi səbəbi kimi göstərilir. Belə göz sayəsində ilahi hikmət və ilham əldə olunur. Xain, haram baxış insan gözünün saflığına təhlükə yaradır. Başqasının hərriminə gizli baxmaq, şorgözlük, xalqın namusuna göz dikmək İslamda qadağandır. Bəs gözü necə qorumaq olar? Bunun yolu imanı gücləndirməkdir. Allah-taala öz bəndələri ilə rabitəsi haqqında buyurur: "Harada olsanız Allah sizinlədir, o bütün işlərinizi görür." ("Hədid", 4)

Həzrət Əlinin (ə) düşündürücü nurani kəlamlarının birində buyurulur: "Gözünü günahdan qoruyan insan cözəl xüsusiyyətlərə sahib olar." ("Mizanul-Hikmə", c. 10)

İslam peyğəmbəri xain baxış haqqında buyurur: "Pis baxış şeytanın zəhərli oxlarındandır." ("Mizanul-Hikmə", c. 10)

Qədim zamanlarda döyüşdə oxdan istifadə olunurdu. Çox vaxt oxun ucunu zəhərə batırırdılar ki, düşmən ox yarasından ölməsə də zəhərin təsirindən ölsün. İmam Sadiq (ə) buyurur: "Pis baxış şeytanın zəhərli oxlarındandır." ("Mizanul-Hikmə", c. 10) Bu qəbil rəvayətlərdə gözün təhlükəli enerjisindən, dalğalarından, şüalanmasından danışılır. Bu insanın həm ruhuna, həm də cisminə təsirlidir. İnsan gözünə nəzarət etməklə həm özünü, həm də başqalarını onun təhlükəsindən qoruya bilər.

Bir növ baxış da təhqiramiz baxışdır. Təhqiramiz baxış İslamda günah sayılır və haram kimi dəyərləndirilir. Məhəbbətli baxış insanın yüksək ruhiyyəsindən danışır. İslam insanda bu ruhiyyəni gücləndirmək yollarını göstərir. Təhqiramiz baxışlar qadağan olunmaqla yanaşı tövsiyə edilir ki, insan din qardaşlarına hörmətlə yanaşsın, onlarla mehriban davransın, xoş üz göstərsin. (Həzrət peyğəmbər buyurur: "Öz müsəlman qardaşını bir kəlmə sözlə əzizləyən insan, onun qəmini aradan qaldıran şəxs əzizlədiyi müddətdə Allahın mərhəməti sayəsindədir; "Əl-Kafi", c. 2, s. 206) İslam tövsiyə edir ki, Allah bəndələrinə mehriban baxışla onlara sakitləşdirici enerji verin. İslamda haram edilən baxışlardan biri də eyb axtaran baxışlardır. İslamda istənilən bir şəkildə insanların eyblərini açmaq qadağan olunur. (Həzrət Peyğəmbər (s) buyurur: "Ey müsəlmanlar, ey dildə iman gətirib qəlbində həqiqi imanı yerləşdirməyənlər! Müsəlmanları məzəmmət etməyin, onların eyblərini açmayın. Kim müsəlmanın eybini açsa Allah da onun eybini açar." "Əl-kafi", c. 2, s. 182) Eləcə də əxlaqsız səhnələrə, filimlərə baxmaq İslamda məqbul sayılmır. Belə çirkaba batan gözlərdə İmam Mehdinin (ə) camalını seyr etmək ləyaqəti qalmır.

Xəcə Əbdullah Ənsari deyir: "Nə yolla olursa olsun insanların qəlbinə yol tap ki, bir şəxs olasan." (Ənsari, minacat, məqalələr, s. 35) Bəli, İslamda vacib əmrlər və qadağalar əsasında gözə nəzarət etmək, onu tərbiyələndirmək müsəlmanın mühüm vəzifələrindəndir.

## Gözdəymə sözü ilə tanışlıq

Məhəmməd Hüseyn ibni Xələf Təbrizinin "Bürhan" kitabında göz dəymə barədə deyilir: "Gözdəymə insanlarda bir şeyi görüb tərifləməklə ona zərər, nöqsan gətirilməsidir"

Gözdəymə hadisəsi insanların baxışından sonra ortaya çıxan hadisədir. Bu metafiziki bir hadisə sayılır. Kimsə onu qəbul edir, kimisə rədd edir.

Gözdəyməyə verilən bütün təriflərdə əsas mövzu zərər, dağıdıcılıq, nöqsan yetirilməsidir. Fars dili ensiklopediyasında deyilir: "Kimin gözündə belə bir təsir olduğu ehtimal edilirsə ona bəd nəzər deyirlər." (Fars dili ensiklopediyasi, c. 4)
Nəticə bu olur ki, nüfuzlu baxışlarla qarşı tərəfə zərər yetirilməsi göz dəymədir, və baxan şəxsə bəd nəzər deyirlər.

Kimin gözü dəyir?

Gözü dəyən insanlar haqqında çox danışılır. Bəziləri iddia edir ki, paxıl insanların gözündə belə təsir var. Onlar bir şeyi görüb xoşladıqda həsrət çəkirlər və xayınlıq hissi yaşayırlar. Bəziləri isə iddia edir ki, gözündə belə təsir olan insanların düşmən olması zəruri deyil. Dostlarda, yaxın insanlarda, rasltaşdığın insanlarda belə təsir ola bilər. Bu insanların həsəd aparması zəruri deyil. Onlar bir şeyə sevgi ilə baxdıqları zaman həmin şey təsirə məruz qala bilər.
Bəziləri bir qədər də ifrata vararaq deyirlər ki, ana övladını çox sevdiyindən ona gözü dəyə bilər.

Ayə və rəvayətlərdə nə deyilir?

İslam gözdəyməni nəinki, xurafat saymır, hətta Qurani-Məciddə bunun həqiqət olduğu bildirilir. Bir çox rəvayətlərdə də gözdəymənin təsiri məqbul sayılır. Hətta deyə bilərik ki, bütün insanların gözündə belə təsir var. Əsas məsələ odur ki, insanlar bir şeyə diqqətlə baxsınlar. Bu da bir həqiqətdir ki, bəzi insanların baxışında daha böyük enerji var. Dini mətnlərdən belə bir qənaətə gələ bilərik ki, gözün təsiri insanın pis olması ilə əlaqəli deyil. Bizim hər birimizin gözündə belə bir təsir var.

## Quran ayələrində gözdəymə

Quran təfsirçiləri üç məqamda gözdəymə ilə bağlı ayələri yada salırlar.
1.Gözdəymənin açıq şəkildə təsdiqləndiyi ayə Qələm surəsinin son ayəsidir. Bir çoxları bu ayəni divardan asır, iş yerində hamının görəcəyi bir yerdə yerləşdirir və ya boynundan asır. Bu ayə "və in yəkadu" adı ilə məşhurdur.
Bu ayənin nazil olması ilə bağlı təfsirlər var. Yazırlar ki, həzrəti Peyğəmbər (s) bir gün məsciddə Quran oxuyurdu. Bir qrup şəxs məscidin qapısı yanında dayanıb Peyğəmbərin (s) çölə çıxmasını gözləyirdilər. Onların məqsədi gözləri ilə Peyğəmbərə (s) zərbə vurmaq idi. Cəbrail həzrət Peyğəmbəri (ə) xəbərdar etdi və bu ayəni öyrətdi ki, göz təsirindən amanda qalsın. Həzrəti peyğəmbər "və in yəkadulləzinə kəfəru..." ayəsini oxuyaraq məsciddən sağ-salamat xaric oldu. (Təfsiri-Təsnim)
Doğrudanmı bu ayə göz dəyməyə aiddir? Bəzi təfsirçilərin nəzərincə ayədə müşriklərin qəzəbli baxışı nəzərdə tutulub. Bəzi təfsirçilər isə, düşmənlərin gözdəymə kimi sirli bir qüvvədən istifadə edib peyğəmbərə zərbə vurmaq istədiyini deyir. Bəzi filimlərdə gözün belə təsirini müşahidə edirik. Kimsə gözü ilə lanpanı söndürür, metal qaşığı əyir, bir əşyanı sındırır.
Bir qrup təfsirçi də ayədə sadəcə gözdəymənin nəzərdə tutulduğunu söyləyir. Onların nəzərincə İslam düşmənləri Quran ayələrini eşidəndə o qədər cazibə görürdülər ki, qəzəblənirdilər, və gözləri ilə Həzrəti (ə) vurmaq isdəyirdilər. Əllamə Təbatəbai nəzərdə tutulan ayənin gözdəyməyə aid olduğunu vurğulayaraq yazir: "Göz dəymə nəfsani təsirlərdəndir, bu hadisəni inkar etməyə əqli dəlil yoxdur. Əksinə, müşahidə olunan hadisələr gözdəymənin həqiqət olduğunu təsdiqləyir." (Əl-Mizan, c.19, səh 648)
Təsnim, Nur, Hidayət, Nümunə təfsirlərində yuxarıdakı ayə və Yusuf surəsinin 67-ci ayəsi gözdəymənin dəlili olaraq vurğulanır. İbni Abbasdan rəvayət olunur ki, həzrət Peyğəmbər ayənin təfsiri ilə bağlı buyurub: "Gözdəymə həqiqətdir" (Əl-Durrul-Mənsur; Qələm surəsi, ayə 51)
Bəli, gözdəymədə belə əsrarəngizlik var. İnşallah İmamın (ə) zühuru dövründə insanların ixtiyarına veriləcək məarif çox mövzular üzərindən pərdəni qaldıracaq.

Quranda gözdəymə haqqında danışılması bəzi tənbəl insanlar üçün bir bəhanəyə çevrilmişdir. Onlar məsuliyyətdən yaxa qaçıraraq öz bacarıqsızlıqlarının və tənbəlliklərinin günahını gözdəymənin üzərinə yıxırdılar.
Belə bir qənaətə gəlirik ki, yuxarda qeyd olunan ayəni oxumaqla insan zərərli baxışların təsirindən qoruna bilər.
1.Gözdəymə ilə bağlı ikinci ayə Yusuf surəsinin 67-ci ayəsidir. Həzrəti Yusif Əzizi-Misir məqamına sahib oldu. Qıtlıqla üzləşdilər. Həzrət Yaqub buğda almaq üçün övladlarını saraya göndərdi. Həzrət Yaqub yola düşən övladlarına buyurdu: "Ey övladlarım! Bir qapıdan daxil olmayın, ayrı-ayrı qapılardan girin."
Peyğəmbərin lətif sözləri onun qəlbindəki ehtiyatdan danışır.
Bir tərəfdən oğlanlarının çoxluğu, onların boy-buxunu, digər tərəfdən gözəllikləri diqqəti cəlb edirdi. Ayrı-ayrı qapılardan daxil olmaq göstərişində bir ehtiyat hiss olunur. Həzrəti Yaqub bu yolla övladlarını gözdəymədən qorumaq isdəyir. Bəzi təfsirçilər iddia edirlər ki, burada gözdəymə yox, onların qətli və ya həbsə alınması təhlükəsi nəzərdə tutulur. Amma əksər təfsirçilər burada həzrəti Yaqubun gözdəymədən ehtiyatlandığını deyirlər. Nəticə budur ki, gözdəymənin qarşısını almaq yollarından biri şəraitə uyğun rəftar etmək, diqqəti cəlb etməməkdir.
... Gözdəymə ilə bağlı araşdırılan ayələrdən biri "Fələq" surəsinin 5-ci ayəsidir. Ayədə buyurulur ki, ey peyğəmbər, de ki, həsəd aparanların şərrindən Allaha sığınıram, o zaman ki, onlar həsəd apararlar.
Bəzi təfsirçilər ayədə gözdəymənin nəzərdə tutulduğunu bildirirlər. Çünki həsəd aparan insan başqalarının əlində olan nemətin məhvini istəyirlər.
Həsəd, paxıllıq şeytani bir xislətdir. İnsanda həsəd yaranmasının bir səbəbi onun imanının zəifliyidir. Dində həsəd bəla sayılır. Rəvayətlərdən aydın olur ki, həsəd gözdəymədən fərqlənir. Bir çox insanlar həsəd aparsalar da, xain olsalar da onların gözündə mənfi təsir yoxdur. Amma səni sevən bir insanın həmin sevginin nəticəsində gözü zərər vura bilər.
Gözdəymə rəvayətlərdə
Gözdəymə haqqında rəvayətlər çoxdur. Bu rəvayətlərdə gözdəymənin təsirlərindən danışılır. "Biharul-Ənvar", digər rəvayət kitablarında gözdəymə haqqında rəvayətlər kifayət qədərdir. Həm sünni, həm də şiyə mənbələrində bu mövzuda rəvayətlər var. Həzrəti Peyğəmbər (ə) buyurur: "Həqiqətən gözdəymə doğrudur..." (Musnədi-Əhməd, c.1, s. 274) Həzrəti Əli (ə) "Nəhcül-bəlağə"də gözdəymənin həqiqət olduğunu buyurur. ("Nəhcül-bəlağə", hikmət 400)
Peyğəmbərin belə buyurduğu rəvayət olunur: "Mənim ümmətimdən ölənlərin ölüm səbəbi qəza-qədərdən sonra gözdəymədir. ("Əl-Durrul Mənsur", c. 6, s. 258)
Həzrət Peyğəmbər (ə) buyurur: "Gözdəymə həqiqətdir, kişini qəbirə, dəvəni qazana salar." ("Biharul-Ənvar", c. 63, səh. 26) Bir gün həzrət peyğəmbər Bəqi qəbiristanlığının yanından keçirdi. Həzrət buyurdu: "And olsun Allaha qəbiristənliq əhlinin çoxu gözdəymədən dünyasını dəyişib." (Təfsiri Minhəcus-Sadiqin", c. 6, Səh. 391) Həzrətdən belə rəvayət olunur: "Gözdəymə təsirlidir." ("Səhihi-Termezi", Kitabul-Tibb bab 19)
Həzrət peyğəmbər buyurur: "Gözdəymə həqiqətdir, hətta dağların zirvəsini uçurar." ("Musnədi-Əhməd", c. 1, səh. 274)
Həzrət Əli (ə) buyurur: "Gözdəymə həqiqətdir, təbiətin əsrarəngiz güclərindən istifadə olunması doğrudur." ("Nəhcül-Bəlağə", hikmət 400) Nəticə bu olur ki, gözdəyməni təsdiqləyən rəvayətlər istər şiə, istər sünnə əhlinin mötəbər mənbələrində yer alıb. "Nəhcül-Bəlağə", "Müsnədi-Əhməd", "Səhihe-Buxari", "Məkarimul-Əxlaq", "Əl-Mustədrək" kimi mötəbər kitablarda gözdəymə hadisəsi təsdiqlənir. Bütün bu rəvayətlər mövzunu araşdırmaq istəyənlər üçün dəyərli mənbədir. Hadisənin həqiqəti sübuta yetdikdən sonra onu ciddi araşdırmağa dəyər. Bəli, gözdəymə xürafat deyil. İslam gözdəyməni təsdiqləyir. (Molla Sədra "Əl-Məbdə vəl Məad" kitabında yazır ki, bəzən insan ruhu kənara təsir qüvvəsinə malik ola bilər. Gözdəymə bu qəbildəndir." (c. 1, s. 607) Bəzi hadisələr həqiqətdir, sadəcə insanlar bu həqiqətə xürafat qatıb. Mövzunu araşdıranların əsas işi həqiqəti xürafatdan ayırmaqdır.

# Elm bu barədə nə deyir?

Göz fiziki baxımdan çox mürəkkəb quruluşa malikdir. Göz üzərində elmi araşdırmalar nəinki gözdəymənin təsirini rədd etmir, hətta bəzi gözlərdə xüsusi maqnit qüvvəsinin olduğu bildirilir. Gözdə olan metafiziki qüvvə elm əhlinin diqqətini cəlb edib. Hazırda böyük elmi mərkəzlərdə tanınmış alimlər insan ruhunun malik olduğu enerjilər üzərində araşdırma aparır. Onlar inanırlar ki, insanda elə bir enerji var ki, nəinki bir əşyanı yerindən tərpədir, hətta lazer şüası kimi məhv etməyə qadirdir. Gözün dağıdıcı qüvvəsi insanın daxili enerjisindən asılıdır. Bu təsirlər xarici və daxili amillərlə bağlı güclənib zəifləyə bilər. Hipnotizm, telepatya kimi sahələr insan ruhunun gücündən danışır. Gözdəymə insan ruhunun malik olduğu enerjinin kiçik bir hissəsidir.
Maqnit enerjisində güc və dalğa uzunluğu meyarları var. Bu enerji və dalğa uzunluğunu artırmaq mümkündür. İnsan ruhunun belə imkanları var. Nəinki insanda, hətta heyvanda belə istedadlar mövcuddur. Onlar öz gözlərindən şüa buraxırlar. ("Təfsiri-Nümunə", "Əl-Mizan", "Nəsim"...)
Gözdəymə oradan başlayır ki, ətrafda nəsə insanın diqqətini cəlb edir, onun ruhunu təsirləndirir. Bu zaman ruhun həmin əşyaya mənfi enerji verməsi mümkündür. Ruhşünas, insanşünas alimlər insanda metafizik qüvvənin olduğunu təsdiqləyirlər. İnsanda bu günə qədər sonadək araşdırılmamış xüsusiyyətlər var. Bu xüsusiyyətlərdən biri onun əsnəməsidir. Biri qarşınızda əsnədiyi zaman sizdə ondan təsirlənmə olurmu? Diqqət yetirmisinizmi ki, bir şəxs əsnəyəndə onun yaxınlığındakı insanlardan da əsnəyənlər olur. Ətrafdakı insanların şadlığı, qəm-qüssəsi insan ruhuna təsir göstərir. İnsanın gözü, qulağı, bədən üzvləri sadəcə vasitədir. Enerji mənbəsi isə ruhdur.
Nəticə olaraq deyə bilərik ki, gözdəyməni inkar edənlər bütün hadisələri ağıl əsasında izah etməyə çalışanlardır. Amma onlar unudublar ki, insan ağılı metafizik hadisələrin izahında acizdir. Onlar kifayət qədər dəlil tapmadıqlarından həmin hadisəni inkar edirlər. Hansıki özləri də şahiddirlər ki, gözdəymə hadisəsi var.

Heyvanların gözündə enerji nümunələri
Tısbağanı misal göstərə bilərik. Bu heyvan üzərində araşdırma aparan alimlər təsdiqləyirlər ki, tısbağa yumurta qoyduqdan sonra ona baxmaqla, bir növ gözünü yumurtaya zilləməklə onu mayalayır, inkişaf etdirir. Sonda yenə də yumurtaya baxmaqla onu çartladır və bala tısbağa yumurtadan çıxır.

Balıqlarda necə göz təsiri varmı?

Taylandda maraqlı bir balıq növü var. Bu balıqların cütləşməsi və toxum qoyması yalnız baxışladır.
Araşdırmalar göstərir ki, itlər insanın gözünə baxmaqla onun fikirini oxuyur. Təsadüfi deyil ki, itlər adətən ondan qorxmayan insana hücum etmir.
Bayquşun da baxışında əsrarəngiz təsir var. Tədqiqatlar göstərir ki, bayquşun görmə gücü insandan 82 dəfə güclüdür. Bayquş adətən qarşısında olan heyvanı ovlayır. O gözlərini heyvana zilləməklə bir növ onu sehirləyir və həmin heyvan hərəkət edə bilmir. Qədim dövrdən bu günə qədər hindli mürtəzlar öz əsrarəngiz güclərini nümayiş etdiriblər. Bu gün də Hindistana turist səfərinə gedənlər buna şahid olur. Mürtəzlar göz qüvvəsi ilə qatarı dayandırır, insanlara təsir göstərirlər. Onlar gözləri ilə hərəkət edən nəqliyyat vasitəsinə təsir etmək qabiliyyətinə malikdirlər.
Elə qədim dövrlərdə də gözü ilə dəmir əşyanı, məsələn qaşığı əyənlər olub. Gözü ilə elektrik lampasını yandırıb söndürənlər var. Bu mövzuda nümunələr kifayət qədərdir.

Müəllifin gördükləri, oxuduqları və eşitdikləri

İctimai həyatda rastlaşdığımız bəzi hadisələrə insanlar fərqli ad qoyur. Eyni hadisələri bəziləri şans, iqbal, bəxt, uğur nişanəsi, gözdəymə adlandırırlar. Psixoloqların yanında oturub gələn xəstələri dinləsək çox maraqlı hadisələrlə rastlaşarıq.

Biri deyir ki, bir evə qonaq getmişdim. Elə yenicə oturmuşdum ki, evin çilçırağı (lüster) gözlənilməz şəkildə çartladı. Hansıki mən çilçıraqa maraqla baxmamışdım. Başqa biri danışır ki, qohumun uşağı oynadığı zaman mən ona baxan kimi yerə yıxıldı. Yerə yıxılandan sonra burnu qanadı. Mən bu uşağı çox sevirəm. Baş vermiş hadisə məni üzdü.
Üçüncü bir şəxs deyir ki, sevdiyim uşaqlara baxdığım zaman hökmən bir hadisə baş verir. Ya yıxılırlar ya da nəsə bir hadisə olur.
Müraciət edənlərdən biri bu gün çoxlarının rastlaşdığı bir haldan danışır. Deyir ki, mənim özümə gözüm dəyir. Elə ki, zehnimdən keçir ki, uzun müddətdir həkimə getmirəm dərhal xəstələnirəm. Düşünürəm ki, xeyli vaxtdır həyat yoldaşımla yaxşı keçinirik. Elə həmin gün evdə bir hadisə baş verir. Bir xəstə deyir ki, ailə üzvlərimiz çox səmimi idi, ailədə mehribançılıq hökm sürürdü. Bizimlə yeni tanış olub evimizə get-gəl edən insanlar çox xoşbəxt ailə olduğumuzu deyirdilər. Çox çəkmədi ki, ailədə münasibətlər pozuldu. Başqa biri deyir ki, həyat yoldaşımın işi çox yaxşı idi. Bundan çoxları xəbər tutmuşdu və deyirdilər ki, filankəsin işi yaxşıdır. Bir müddət sonra heç bir obyektiv səbəb olmadan onun işləri pozuldu. Bir şəxs deyir ki, dostumun evinə getmişdim. Qəfəsdə gözəl bir quş var idi. Mən sadəcə dedim ki, çox gözəl bir quşdur. Elə orada olduğum zaman quş öldü.

Bu barədə nə yazırlar?

Gözdəymə ilə bağlı mütəxəssislərin və sadə insanların təcrübələri barədə yazılar çoxdur. Oxuyuruq ki, Azərbaycan kəndlərindən birində bir kişi var imiş. Bu kişi evdən çıxdığı zaman nəyə baxırmışsa həmin şey aşırmış, yerə deyirmiş. Bu insanın fövqəladə ruhi gücü var imiş. Kənd camaatı ondan xahiş edibmiş ki, bayıra çıxanda yalnız yerə baxsın.
Başqa bir məqalədə yazılır ki, bir şəxs inəyin üstündə yük aparırmış. Onunla yolda rastlaşan şəxs çox gözəl inəkdir deyir. İnək yerindəcə çabalayıb ölür. Oxşar bir hadisədə heyvana baxan insan onu tərifləyir və bu heyvan yerə yıxılır. Baxan şəxs deyir ki, onun gözündə öldürücü bir qüvvə var sadəcə heyvanın belində olan çubuq növü bu baxışı bir qədər zərərsizləşdirib. Aydın olur ki, bəzi əşyalar dalğanın qarşısını alır. Təsadüfi deyil ki, insanlar bəzən gözdəymənin qarşısnı almaq üçün maşına və ya evin qapısına etiqad bəslədikləri bir əşya və ya bitki taxırlar. Məhşur əhvalatdır ki, Vərzqan kəndlərindən birində camaat quyu qazdığı zaman bir daşa çatır. Heç vəchlə daşı qıra bilmirlər. Bu zaman bir şəxs quyunun başına yaxınlaşıb diqqətlə daşa baxmağa başlayır və deyir ki, necə də böyük daşdır. Elə həmin an daş çartlayır. Biri nəql edir ki, qonşuda elektirik məmulatları satan bir şəxs var idi. Dükanı belə əşyalarla dolu idi. Bir gün dedi ki, dükana daxil olan şəxs dedi nə çox çilçiraq var. Göydə olan çilçıraqlar möcüzəli şəkildə qırılıb yerə töküldü.
Bəzi təfsirlərdə "və in yəkadulləzinə kəfəru" ayəsi ilə bağlı deyirlər: Həsədçil, paxıl bir şəxs iki üç gün olardı yemək yemirdi. Qapıya çıxıb yoldan keçən qoyunlara baxır və deyir: "Mən bu günə qədər belə kök qoyunlar görməmişəm. Qoyunlar oradan aralanmamış yerə yıxılırlar. Kafirlər bu şəxsi dəvət edirlər ki, o peyğəmbərə baxsın və onun baxışı ilə peyğəmbərə zərər dəysin. (Bu əhvalat əksər şiə və sünni mənbələrində nəql olunmuşdur.)
Hər birimiz oxşar hadisələrlə rastlaşmışıq. Bəzən özümüz belə hadisələri təcrübədən keçirmişik. Bu hadisələri danışmaqda məqsəd insanları həyəcanlandırmaq deyil. Bu bir həqiqətdir və gözün təsirinin qarşısını almaq üçün təklif olunmuş yollar var. Biz bütün bu hadisələri danışırıq və yollar göstəririk ki, insanlar gözün zərərli təsirlərindən qoruna bilsinlər. Gözün təsirini təsdiqləyən əhvalatlar çoxdur və biz hələlik yada saldığımız əhvalatlarla kifayətlənirik.

# İkinci pəncərə
# İslam gözdəymədən qorunmaq üçün nə təklif edir?

Gözdəymədən qorunmaq üçün nurani ilahi kəlamlarda və Əhli-beyt (ə) buyuruqlarında müəyyən tövsiyələr yer alıb. Şübhəsiz ki, hər birimiz ətrafdakı insanlarla ünsiyyətdə olanda, cəmiyyətə çıxanda göz dalğalarının təsirinə məruz qalırıq. Biz buna qarşı tədbir görəndə də əminliklə görməliyik. Gözdəyməyə qarşı dinin verdiyi tapşırıqları üç qrupa bölmək olar:
1.Gözdəyməyə qarşı oxunan zikr və dualar; "Çəhar qul" deyilən dua buna misal göstərilə bilər;
2.Yazılı şəkildə insanın öz üstündə gəzdirdiyi zikr və dualar;
3.İnsanın öz əməl və rəftarlarında riayət etməli olduğu qaydalar. Buna misal olaraq insanın özünü göstərməsi, diqqəti cəlb etməsi misal çəkilə bilər.
Gözdəyməyə qarşı nə oxumalıyıq:
1.İlk yerdə istiazə gəlir. İstiazə Allaha pənah aparmaq, Allaha sığınmaqdır. "Nəhl" surəsinin 99-cu ayəsində buyurulur: "O yalnız Onu rəhbər seçənlər üzərində hakimiyyətə malikdir." (İnnəhu ləysə ləhu sultanun ələlləzinə amənu və əla Rəbbihim yətəvəkkəlun.) Allaha sığınmaq təkcə Quran ayələri oxumaqla xülasələşmir. Bu bir qədər geniş məsələdir. İnsanın yaranışında məqsəd onun təkamülü, kamilləşməsidir. Bu yolda insanın əsas düşmənlərindən biri İblisdir. İblis and içib ki, Allahın şərəfli yaranmış qərar verdiyi insanı bədbəxt etsin. O bu yolda cinlərdən və insanlardan istifadə edir. Bu işdə insanın əmmarə nəfsi onun əsas düşmənlərindəndir. İnsan şeytanın hücumları qarşısında zəif və aciz qalır. İnsanın bu hücumlar qarşısında möhkəm sığınacağa ehtiyacı var. İnsan bu hücumlardan qaçaraq daim deyir: "Əynəl məfərr" yəni sığınacaq yeri haradadır? Sığınacaq axtaran insana ilahi bir pıçıltı gəlir: "Allaha doğru qaçın, çünki mən Allah tərəfindən xəbərdarlıq edən, aydınladan biriyəm." (Fə firru iləllahi indi ləkum minhu nəzirun mubin; Zariyat surəsi, ayə 50) Nəticə alırıq ki, istiazə dedikdə istənilən bir şəraitdə qorxu və təhlükəyə qalib gəlmək üçün Allaha sığınmaq nəzərdə tutulur: "Əuzu billahi minəşşeytanil-ləinil rəcim." İstiazə şeytanın caynağından qaçıb Allaha sığınmaqdır. Təbii ki, burada şeytanın öz hücumu nəzərdə tutulmur. Gizli və aşkar qüvvələrin təsiri şeytanın hücumlarındandır. İnsan yalnız Allaha sığınmaqla xilas ola bilər. Bütün işlərdən əvvəl və sonra bu zikri oxumaq təsirlidir. Evdən çıxarkən, Quran oxumağa başlayarkən, kitab mütaliəsindən öncə, kompyuter arxasına keçərkən, saytlara baxarkən bu zikri oxumaq təsirlidir. Bu zikr dağıdıcı qüvvələr qarşısında bir sipərdir. Bu zikr eyni zamanda insan qəlbini vəsvəsələrdən, şəkk-şübhələrdən qoruyur. Bacardığımız qədər bu cümləni zikr etməliyik.
2.Bismillahir-Rəhmanir-Rəhim deməyin təsiri
Bismillahir-Rəhmanir-Rəhim cümləsi haqqında çox yazılıb. Doktor Nəqipur Quran ayələri barədə düşünmək mövzusunda yazdığı kitabda maraqlı nöqtələrə toxunur. Kitabda belə bir hədis yada salınır: "Günah qapılarını "istiazə" ilə bağlayın, Rəhmət qapılarını Allahın adını zikr etməklə açın." ("Mizanul-Hikmə", c. 8)
İstiazədə dağıdıcı qüvvəni zərərsizləşdirmək gücü var. İstiazə şeytanın hücum vasitələrini məhv edir. Bismillahda isə quruculuq var. Nəfsin tərbiyyəsində, imanı gücləndirməkdə, səbr və ehsanda Bismillah deməyin təsiri böyükdür.
Hər bir işdən qabaq Bismillah demək ilahi rəhmətin nazil olmasına, bağlı qapıların açılmasına səbəb olur. Bismillahın çox zikr olunması insan həyatına ilahi ətir verir. Bismillahı çox oxuyan insan salamat qalır, şərdən uzaq olur.
İmam Baqir (ə) buyurur: "Səmadan enən bütün kitablar Bismillahla başlayır. Bismillah dedinsə özündə qorxuya yer vermə. Bismillah dediyin zaman səni yerlə göy arasında qoruyarlar." (Şeyx Səduq, Xisal, c. 8, səh. 172) Həzrət peyğəmbər haqqında yazırlar: Həzrət peyğəmbər mənzilə daxil olanda və Qüreyş onun ətrafına toplananda uca səslə Bismillah deyərdi. Həzrətin Bismillah sözündən sonra Qüreyş tələsik dağlışardı.
Müqəddəs Bismillah zikri Nuh peyğəmbərin gəmisini təhlükəli tufan zamanı qorudu. Həzrət Nuh gəminin üzərinə öz əli ilə Bismillah yazmışdı. Deməк, Bismillah zikri insanı yerin və göyün bəlalarından qoruyur. Heç zaman Bismillahı yaddan çıxarmayın. Yatdığınız zaman, yuxudan

oyandığınız zaman, mütaliə zamanı, evə daxil olanda, evdən çxanda, yeməyə başlayanda, hamama gedəndə, bir sözlə, bütün işlərdən qabaq Bismillah demək adətiniz olsun. Şeyx Abbas Qummi Məfatehdə tövsiyə edir ki, evin qapısına Bismillah yazılsın.
Həqiqətən Bismillahir-Rəhmanir-Rəhim zikri Allah tərəfindən insanın salamatlığı üçün bir zəmanətdir. Bismillah deyin və özünüzü mənfi enerjilərin hücumu qarşısında Allahın pənahında hiss edin.
İstiazə və Bismillah zərərli dalğaların əhatəsində insanı qoruyan və ona yol açan iki mühüm vasitədir.

3.Quran qiraəti ilə nemətə çatmaq və şərdən uzaqlaşmaq
Quran qiraəti insanı şər və bəladan uzaqlaşdırır, şeytan vəsvəsələrinin qarşısını alır, ilahi rəhmətin nazil olmasına səbəb olur. Evdə, bir məkanda Quran səsi ucalanda oranın fəzası şeytanın zəhərli çirkabından paklanır.
İmam Sadiq Əmirəlmöminin Əlidən (ə) belə nəql edir: “Quran oxunan, Əziz və Cəlil Allahın xatırlandığı evdə bərəkət artar, mələklər orada olar, əhrimənlər oranı tərk edər, bu ev səma əhlinə işıq saçar. Necə ki, ulduzlar yerə işıq verir. Quran oxunmayan, Əziz və Cəlil Allahın xatırlanmadığı evdə bərəkət azalar, mələklər oranı tərk edər, əhrimənlər orada olar, bu evin fəzası zəhərlənər, şər və fəsadla dolar.” (Quranda tədəbbür araşdırmaları, səh. 80)
Deməк, Quranla çox ünsiyyət, onu gözəl səslə oxumaq ilahi bərəkət və mələklərin gəlişinə səbəb olar. Bu yolla həmin evdə asayiş və salamatlıq yaranar. Evdə Quran oxunmaması orada şeytanları fəallaşdırar, asayişi aradan qaldırar.
Valideynin əsas məsuliyyətlərindən biri evdə gözəl səslə Quran oxumaqdır. Quran avazı evdəki mənfi enerjini uzaqlaşdırır, dolayı yolla ev əhlinin ruhiyyəsini dəyişir.
Çalışaq ki, hər gün ən azı Qurandan on ayə oxuyaq. Bu ayələr barədə düşünək. Beləcə, Allahın izni ilə qəlblərimiz və mənzillərimiz zülmət və zərərli dalğalardan hifz olsun, nuranіləşsin.
4.Cin surəsini oxumaqla cinlərin gözdəyməsinin qarşısnın alınması
Quran araşdırmaçıları düşünürlər ki, Cin surəsində gözə görünməyən mövcudlar haqqında danışılır. Surədə onların dinə və peyğəmbərə, eləcə də məada imanından söz açılır. İmam Sadiq (ə) buyurur: “Kim “Cin” surəsini çox oxusa həyatı boyu ona cin gözdəyməsi, sehr-cadu, hiylələr təsir göstərməz, Həzrət Məhəmmədlə (ə) yoldaş olar...” (Təfsiri-Nümunə”, c. 25, s. 98) Belə bir qənaətə gəlirik ki, insana təkcə ətrafdakı insanların yox, gözə görünməyən cinlərin də gözdəyməsi zərbə vurur. Bunun qarşısını almaq üçün ardıcıl şəkildə cin surəsini oxumaq lazımdır. Xüsusi ilə dini geyim insanı pis gözdən qoruyur. “Cin” surəsini oxumağın savabı barədə həzrət Peyğəmbər (s) buyurur: “Kim “Cin” surəsini oxusa peyğəmbəri təsdiq və təkzib etmiş cin və şeytanların sayı qədər qul azad etməyin savabını qazanar.” (“Təfsiri-nümunə”, c. 25, s. 98)
5.Məuzəteyn (Nas və Fələq surələri) şərə qarşı
Qurani-Kərimin iki son surəsi, “Fələq” və “Nas” surələri şərrin uzaqlaşdırılmasında ən təsirli surələr sayılır. Məsumların buyuruqlarında bu həqiqət təsdiqlənir. Söhbətimizin əvvəlində qeyd etdik ki, bəziləri gözdəyməyə münasibətdə ifrata varır, göz dəyər deyə sevinclərini, uğurlarını gizlədirlər. Onlar hətta pis geyinirlər ki, onlara göz dəyməsin. Danışanda şikayətlənirlər ki, gözdəymədən qorunsunlar. Bir şəxs İmam Rizadan (ə) bu barədə soruşdu. İmam buyurdu: “Gözdə təsir var. Əgər gözün təsirindən qorxursansa əllərini çöhrən bərabərində qaldır (qunut vəziyyətində) “Həmd”, “Tövhid”, “Nas” və “Fələq” surələrini oxu. Sonra əllərini alnına çək, Allahın izni ilə faydası olar.” (“Biharul-Ənvar”, c. 92, s. 192)
İmam Sadiq (ə) buyurur: “Diqqəti cəlb edəcək görkəmdə evdən çıxdığınız zaman gözdəymədən qorunmaq üçün “məuzəteyn” oxuyun.” (“Biharul-Ənvar”, c. 92, səh. 330)
Həzrət Peyğəmbərdən (ə) nəql olunmuş hədisdə deyilir: “Allah gözəldir və gözəllikləri sevir. Allah bəndəsində öz nemətinin əsərini görəndə razı qalır. Allah razı deyil ki, kimsə özünü yoxsul göstərsin, özünə yoxsul görkəmi versin.” (“Kənzül-Ummal”, h. 17166)
İslam təlimlərində nəinki özünü yoxsul göstərmək bəyənilmir, ətrafdakıların ruhiyyəsinə mənfi təsir göstərəcək əksər işlər qadağan olunur. Əgər insanların nemətlərə malik olması gözdəyməyə səbəb olursa vəzifəmiz nədir? Əgər insan Quran göstərişləri və İslam təlimlərindəki göstərişlərə əməl edərsə xoşbəxt olar və xürafatdan uzaqlaşar. İmam Sadiqin (ə) nürani tövsiyyələri, Həzrət Peyğəmbərin (s)

göstərişlərindən aydın olur ki, insanın özünə gözəl görkəm verməsi vəzifə olduğu kimi, pis gözdən görünmək üçün “məuzəteyn” oxuması da zəruridir. “Məuzəteyn” oxuyan insan sanki pis göz qarşısında zireh rolu oynayan zikrdən libas geyinir.

Şər qüvvələrin gözə görünməyən hücumları

Din alimləri və Quran araşdırmaçıları bu fikirdədirlər ki, şər qüvvələr üç yolla insana yaxınlaşır.

1.Xaricdən hücumlar; burada azğın təcavüzkarlar, ovsunçu fitnəkarlar, paxıl insanlar nəzərdə tutulur. Belə təsirlərin qarşısını almaq üçün fələq surəsini oxumaq lazımdır.

2.Xaricdən vəsvəsə hücumları; Cin və insandan olan şeytanlar insanlarda daim şəkk-şübhə yaratmağa çalışır. Onlar çirkin işləri insana gözəl göstərmək istəyirlər. “Nas” surəsini oxumaqla belə təsirlərin qarşısnı almaq olar.

3.Daxilimizdən gələn vəsvəsələr; İnsanda olan əmmarə nəfs onu günah və çirkaba sürükləyir. “Nas” surəsi nəfsin vəsvəsələrini “Fələq” sursəi əməli hücumları əngəlləyir, onların qarşısnı alır. (Quranda tədəbbür araşdırmaları, s. 154)

Belə bir qənaətə gəlirik ki, insan ruhunun qidası olan Qurana sarılmaqla, “Fələq” və “Nas” surələri kimi təsirli surələri namazda və başqa vaxtlarda ardıcıl şəkildə oxumaqla zəhərli baxışların, müxtəlif hücumların qarşısını almaq mümkündür. Əgər bəzi insanlarda bu enerjinin güclü olduğunu hiss etmisinizsə onlarla rastlaşdığınız zaman və ya bundan qabaq özünüzü ayələrin sığınacağına çatdırın, surələr oxumaqla, zikr və dualarla özünüzü qoruyun.

## Yazılı dualar

Məsumların buyruqlarında gözdəymənin qarşısını almaq üçün yazılı dualardan istifadə etmək də tövsiyə olunub. Dini mətnlərdə oxuyuruq ki, Həzrəti İbrahim və həzrəti Musa, eləcə də İslam peyğəmbəri bu yolla öz övladlarını gözdəymədən qoruyublar. ( Buxari, c. 94, s. 194)

Həzrət Peyğəmbər (s) Həsən (ə) və Hüseyn (ə) üçün bu cur dualar oxuyardı: “Sizi hər bir şeytan, heyvan, və bəd nəzərin şərrindən Allahın kəlamlarına sığındırıram.”

Həzrət Əli (ə) buyurur: “Gözdəymə həqiqətdir ona qarşı dua da həqiqətdir.” (“Nəcül-bəlağə”, qısa kəlamlar, 400)

Müəmmər İbni Xaliq deyir : Xorasanda İmam Rizanın (ə) bazarlıq işinə baxırdım. Bir gün buyurdu ki, ona bir neçə maddədən hazırlanmış ğaliyə ətri alım. Ətri gətirəndə Həzrət xoşhal oldu. Ətrə baxıb buyurdu: “Ey Müəmmər! Gözdəymə həqiqətdir. Bir vərəq götür , həmin vərəqə Həmd, İxlas, Nas, Fələq surələrini və ayətul-kürsünü yaz, ətir şüşəsində yerləşdir. (“Biharul-Ənvar”, c. 95, s. 127)

Nəticə alırıq ki, dua yazılması və duanın qapıdan, boyundan, qoldan asılması dini mənbələrdə təsdiqlənmiş bir işdir və gözdəymə qarşısında təsirlidir.

Dua yazarkən bəsirətli olmaq

Sual yarana bilər ki, İslamda dua yazmaq tövsiyə olunmuşdur? Duanı hər adam yaza bilərmi? Dua yazanlara müraciət etmək bəlanın qarşısını alırmı? Dua yazan insanın hansı xüsusiyyətləri olmalıdır? Dua yazmaq üçün xüsusi zaman və şərait nəzərdə tutulmuşdur?

Dua yazmaqla bağlı bəzi nöqtələr

Əziz oxucular yaxşı bilirlər ki, duanı zəfəran və ya gülabla yazmaq tövsiyə olunub. Aydın olur ki, hər bir insan dua yaza bilər. Təbi ki, iman əhli və həqiqi alimlərin və eləcə də Quran əhlinin sözü və qələmi təsirlidir. Onlar dua yazarkən bu sözlərdə xüsusi təsir ola bilər.

Gözdəyməyə qarşı dua yazmaq

Sualı cavablandırmazdan qabaq deməliyik ki, müəllif gözdəymə mövzusu ilə çox maraqlanıb. Bu mövzuda bir çox suallar aktual olaraq qalır. Mən bu barədə böyük ustadlardan soruşmuşam və onların cavablarını nəzərinizə çatdıracağam. Amma xoş bir məqsədlə adlarını çəkməyəcəyəm.

Alimlərlə söhbətlərdə və rəvayətlərdə duayazan kəlməsinə rast gəlmədim. Amma qədim zamandan alimlər dua yazıblar. Rəbbani alimlərin qələmlərində şəfaverici təsir olub.
Amma dua yazmağın mümkünlüyü ilə bağlı araşdırmalarda şahid olduq ki, sünni və şiə mənbələrində dua yazmaq məqbul sayılır. Xüsusi ilə şiə mənbələrində buna yer verilib. Tövsiyə olunur ki, belə duaları boyun və ya qoldan assınlar. İnsan yaşadığı yerdə, iş yerində də bu duaları asa bilər. Harada gözdəymə ehtimalı çoxsa bu işə daha çox müraciət olunur. Məsum İmamların dövründə insanlar İmamlardan dua istəyirdilər.
Məhəmməd ibni Harub İmam Baqirə (ə) məktub yazır, cinlərin uşaqlara təsirinə qarşı dua istəyir. Həzrət öz xətti ilə iki dua yazır. ("Biharul-Ənvar", c. 92, s. 113)
İmam Sadiq (ə) buyurur: "Dua sehri gücdən salır. Duanı kağıza yazıb boyundan asın." (Həmin mənbə)
Gözdəyməyə qarşı İmam Rizanın (ə) tövsiyəsi var ki, Həmd, Nas, Fələq, Tövhid, surələri və Ayətəl-kürsünü bir kağıza yazsınlar. (Həmin mənbə)
Şeyx Abbas Qummi "Məfatihul-Cinanda" Şeyx Kəfəminin "Məfatihul-Qeyb" kitabından nəql edir: "Hər kəs Bismillah sözünü yazıb evin qapsına vursa bədbəxtlikdən amanda qalar-hətta kafir olsa!" ("Məfatihul-Cinan", s. 1085)
Bir şəxs İmam Rizaya (ə) babasil xəstəliyindən şikayətlənir. Həzrət buyurur ki, "Yasin" surəsini balla yaz və suyunu iç." ("Biharul-Ənvar", c. 95, s. 82) Nəzərdən keçirdiyimiz rəvayətlərdən aydın olur ki, həyatın çətin vaxtlarında problemlərlə qarşılaşan zaman ayə və rəvayətləri yazıb boyundan və ya evdən asmağın faydası var.
Sual olunur ki, hər bir insan öz ehtiyacına uyğun dua yaza bilərmi? Rəvayətdə "yaz" göstərişi verildiyindən aydın olur ki, bu işi hər bir adam özü görə bilər. Dua və ərizə yazmaq təvəssül və istiğasə üsullarındandır. Bunu yazdığın zaman nə qədər imanlı, diqqətli və ümidli olsan bir o qədər təsirlidir. ("Biharul-Ənvar", c. 92, göz babı) Amma dua yazarkən bəzi şərtlərə əməl etmək lazımdır. Dəyərli ustad Quran təfsirçisi doktor Əhməd Abidini maraqlı bir tövsiyə verir: "Duaları qələmlə, İran kağızlarına və samana yazın. Bunun hikməti var."
Dua yazdırarkən nəzərdə saxlamaq lazımdır ki, dua yazanın iman və diqqəti təsirsiz deyil. Qədim zamanlardan xəstəlik və bəla ilə üzləşənlər dua yazanlara müraciət ediblər. Bu duaların təsirindən faydalananlar olub. Bəziləri dua yazan kimi məhşurlaşıb. Pak nəfsli, təqvalı, alim insanların yazdığı duaların bəla və xəstəliklərə təsirini inkar etmək olmaz. Belə pak insanlardan dua istənilməsi müsbət ənənədir. Belə dua yazanlar Allahın razılığını qazanmaq niyyəti ilə mötəbər kitablara müraciət etmiş, xalqın problemlərini aradan qaldırmaq üçün dualar yazmışlar. Uşaqlıq dövründən xatirələrim var ki, pak seyid ruhanilər belə işlərdə xalqın ümid yeri olublar. Dua yazanın xalis niyyəti, qəlbən etiqadı, müraciət edənin imanı duanın təsirində rol oynayır. Təbii ki, belə pak insanlarla yanaşı dua yazmağı özünə peşə edən işbazlar da var. Onların yeganə məqsədi xalqdan pul qoparmaqdır. Belə dua yazanların əksəri savadsız olur. Müqəddəs İslam və sağlam ağıl insana göstəriş verir ki, dua üçün pak insanlara müraciət olunsun. Quran oxumağın, dua və tövbənin insanın taleyinə təsiri danılmazdır. Həzrət Əli (ə) buyurur: "Dua mömüninin sipəridir." ("Üsuli-Kafi", c. 4, s. 214)
İmam Sadiq (ə) buyurur: "Dua dəmir nizədən iti və təsirlidir." ("Üsuli-Kafi", c. 2, s. 267)
İmam Sadiq (ə) buyurur: "Dua ərşin qəti qəza-qədərini dəyişər." ("Üsuli-Kafi", c. 4, s. 469) Belə bir nəticə çıxarırıq ki, dua yazmaq və dua oxumaq mühüm mənəvi işlərdəndir. Allah-taala bu işləri varlıq aləmindəki müəyyən dəyişikliklər üçün təsirli edib. Bu baxımdan varlıq aləminin həqiqətləri təkcə fiziki hadisələrə bağlı deyil.

## Dua yazana müraciət edə bilərikmi?

Xüsusi hallarda bizə icazə verilib ki, sehr və cadunu təsirsizləşdirmək biliklərinə malik dua yazana müraciət edək. Sehr-cadu gözdəymədən fərqli hadisədir. Sehr dağıdıcı həqiqətlərdəndir, insanlar arasındakı münasibətləri, dostluğu aradan qaldırır, kin-küdurət yaradır. Sehr-cadu İslamda haram əməl sayılır. Həzrət Peyğəmbər (s) buyurur: "Sehr-cadu edən məndən deyil." ("Mustədrək", c. 12, səh. 111)

Bəzən insanlar arasında sevgi-məhəbbət yaratmaq üçün də sehr-zadudan istifadə olunur. Bu iş də lənətlənib. Sehr-cadu ilə insanların qəlbinə yol tapıb onun var-dövlətinə sahib durur, dilini bağlayır, ona əzab-əziyyət vermək üçün cinlər göndərirlər.
İslamda sehri təsirsizləşdirmək biliyinə malik olan alimlərə bu işi görmək vacibi-kifayidir, yəni sehr təsirsizləşdirilənə qədər vacibdir. (Bütün təqlid mərcələrinin nəzəri budur ki, sehr-cadu haram işdir, onu təsirsizləşdirmək vacibi-kifayidir.)
Nəticə alırıq ki, sehr dağıdıcı olduğundan alimlər və məharətli dua yazanlar sehr-cadunu təsirsizləşdirməyə vəzifəlidirlər. Bəzən sehr-cadu haralardasa gizlədilir. Onlar basdırılmış mina kimidir. Bu minaların təsirsizləşdirilməsi üçün mütəxəssislərə müraciət etmək olar. (Sehr sözünün lüğət mənası zərif, lətif deməkdir. Kim bir başqasını yumşaltmaq məqsədi ilə qeyri-təbii güclərdən istifadə edərsə bu sehrdir; (Elm və din baxımından ruh və cin, s. 295)

## Bizim öz gözlərimizdə təhlükə varmı?

Söhbətimizin əvvəlində qeyd etdik ki, gözdəymənin çevrəsi böyükdür. Hamıda göz enerjisi var. Bu barədə ən dəqiq məlumatı peyğəmbərlər və vəhy təfsirçiləri veriblər. Bəzi rəvayətlərdən aydın olur ki, bir qrup insan nəinki gözü ilə bizə problem yaradır, hətta biz özümüz də gözümüzlə onlara problem yaradırıq. Buna görə də rəvayətlər tövsiyə edir ki, dost və yaxın insanların əlində bir nemət gördükdə və bundan heyrətləndikdə də dərhal "Və in yəkadulləzinə kəfəru..." ayəsini, başqa dua və zikirləri oxuyaq. Bu dua və zikrləri təkrarlamaqla gözün mənfi dalğalarını zərərsizləşdirmək olar.
Gözümüzün mənfi təsirinin qarşısını necə alaq?
Gözdəymə barədə dini mənbələrdə verilən məlumatlara və təcrübəli insanların tövsiyələrinə əsasən bütün insanların gözündə böyük enerji var. Xüsusi şəraitlərdə bu enerji işə düşür və öz dağıdıcı təsirini göstərir. Hər birimizdə belə enerji var. Təcrübədə sübuta yetib ki, bizim öz sevdiyimiz övladlarımıza da gözümüz dəyir.
Övladlarımızın evinə gedəndə və gözəl bir əşya görəndə bu bizi ehtizaza gətirir. Yaxınlarımızın boy atması, gözəlləşməsi bizi təəccübləndirir. Bəzən sevdiyimiz insanların işdə uğur qazanması bizdə sevinc yaradır. Biz bütün bu işlərdən ləzzət alsaq da, Allaha şükür etsək də, göz enerjimiz dağıdıcı təsirini göstərə bilər. İslam məktəbi göz enerjisini ilahi zikrlərlə cilovlamağı tövsiyə edir. Xüsusi zikrlərlə bu dağıdıcı qüvvənin qarşısını almaq olar. Həzrət Peyğəmbər (s) buyurur: "Əgər müsəlman qardaşınızın əldə etdiyi şey sizi təəcübləndirsə dərhal deyin: "Təbarəkallahu əhsənul xaliqin". Çünki gözdəymə həqiqətdir." ("Musnədi-Hənbəl, c. 3, s. 84,447) Imam Sadiqin (ə) tövsiyələri arasında belə bir tövsiyə yer alıb: "Qardaşınızın əlində olan şeydən xoşunuz gələndə, buna təəccüblənəndə dərhal deyin: "Təbarəkəllahu əhsənul xaliqin". Bəli, gözdəymə həqiqətdir." ("Biharul-Ənvar", c. 60, s. 26) Kim gördüyü şeydən təəccüblənsə, heyrətlənsə, sevinsə desin: "Əllah, Əllah, maşaəllah, la qüvvətə illa billah", bu zaman gözündə heç bir mənfi təsir olmayacaq." (Həmin mənbə)
İmam Sadiq buyurur: "Gözdəymə həqiqətdir. Nə sən başqalarının gözündən amandasan, nə də başqaları sənin gözündən amandadır. Buna görə də gözdəymənin qarşısını almaq üçün üç dəfə de: "Maşaəllahu, la qüvvətə illa billahil-əliyyil əzim." (Həmin mənbə)
Həzrət peyğəmbərin belə buyurduğu nəql edilir: "Gözdəymə həqiqətdir. Bir insana, heyvana, bir əşyaya baxıb onun gözəlliyindən təəccüblənəndə deyin: "Aməntu billahi və səlləllahu əla Muhəmmədin və alih". Bundan sonra gözün mənfi təsiri aradan qalxar." (Həmin mənbə)
Başqa bir yerdə Peyğəmbərdən (s) belə nəql olunur: "Sizlərdən birinizi müsəlman qardaşınızın var-dövləti təəccübləndirəndə dərhal deyin: "Təbarəkallahu əhsənul xaliqin". Çünki gözdəymə həqiqətdir." (Musnədi-Hənbəl", c. 3, s. 447)
İmam Sadiq (ə) buyurur: Mömin qardaşda olan bir şeydən xoşunuz gələndə təkbir, (Allahu-əkbər) deyin ki, ona zərər toxunmasın." ("Biharul-Ənvar", c. 60, s. 25)
"Musnədi-Hənbəl" və digər sünni mənbələrində nəql olunur ki, peyğəmbər zamanında Səhl ibn Hənif adlı bir şəxs Mədinədə göldə üzdüyü zaman Abdullah Amir adlı bir şəxs ona baxıb təəccüblə deyir:

“Bu günə qədər belə gözəl heykəl görməmişəm!” Bu söz onun ağzından çıxan kimi səhl haldan düşür, vəziyyəti ağırlaşır. Amir özü Peyğəmbərin (s) yanına girir və baş vermiş hadisəni danışır. Həzrət Peyğəmbər (ə) buyurur: Nə üçün öz qardaşınızı öldürürsünüz! Nə zaman müsəlman qardaşa baxıb təəccüblənsəniz deyin: “Təbarəkallahu əhsənul xaliqin.” Sən bunu demədinmi? Axı gözdəymə həqiqətdir.” Sonra Peyğəmbər Amirə göstəriş verir ki, dəstəmaz alsın. Amir dəstəmaz alandan sonra Səhlin vəziyyəti yaxşılaşır. (“Təfsirul-Qurtubi”, c. 9) Bir daha qeyd edək ki, gözdəymənin səbəbi baxan insanın paxıllığı, kin-küdurəti deyil. Sevgi ilə, məhəbbət ilə baxış da təsirlidir. Necə ki, ananın öz övladına gözü dəyir. Bunun qarşısını almaq yollarından biri gözü qaçırmaqdır. Bir şeydən xoşunuz gələndə dərhal gözünüzü qaçırmğa çalışın.
Nəticə alırıq ki, həm bizim gözümüz başqalarına təsirlidir, həm də başqalarının gözü bizə təsirlidir. Ətrafdakı insanları ittiham edib özümüzü təmizə çıxarmayaq.

Gözün dağıdıcı enerjisinin qarşısını almaq üçün ən gözəl vasitə bunun üçün nəzərdə tutulmuş dualardır. Deməк nigaran olmağa əsas yoxdur, sadəcə bu duaları öyrənmək lazımdır.
Allah qorxusundan, Əhli-beytin (ə), xüsusi ilə İmam Hüseynin (ə) məzlumiyyətinə ağlayan gözlərdən, harama qapanan gözlərdən inşallah zərərli təsir götürülər.
Çalışaq ki, bu sahə üçün nəzərdə tutulmuş duaları əzbərləyək, bir şeyə baxıb təccübləndiyimiz zaman həmin duaları uca səslə oxuyaq. Əgər belə etsək müalicəvi zikr adı altında bir mədəniyyət formalaşar. Bizə göstəriş verilib ki, bir şey gözünüzə xoş görünəndə, gözünüzü tutanda, onu Allahın pənahında qərar verin və Peyğəmbərə (s) salam göndərin. (“Biharul-Ənvar”, c. 60, s. 25)
Nəql olunan rəvayətlərdən görünür ki, gözün mənfi enerjisinin qarşısını almaq üçün dəstəmaz almaq təsirlidir. Dəstəmaz dində bəyənilmiş əməllərdəndir. Öz gözünün mənfi təsirindən ehtiyatlanan insan bir səhnə ilə qarşılaşdıqdan sonra dəstəmaz alıb desin: “Allahu əkbər, maşaallah, təbarəkallahu əhsənul xaliqin...
Gözdəymə hadisəsi bizim ixtiyarımızda deyil və biz istəmədən baş verir. İslam təlimlərində bilməyərəkdən baş verən bütün işlərə görə insan məsuliyyət daşımır. Yəni bu işlər ona günah yazılmır.

Gözü dəyən insanın vəzifələri

Gördüyün səhnədən təəccüblənəndə, sevinəndə dərhal de: Təbarəkəllahu əhsənul xaliqin.
Heyrətləndiyin zaman de: Allah, Maşaallah, la-qüvvətə ila billah.
Təəccübləndiyin zaman de: Maşəllahu, la qüvvətə illa bilahil-əliyyil-əzim
Əgər gördüyün səhnə səni heyrətləndirdisə dərhal de: Aməntu billahi və səlləllahu əla Muhəmmədin və alih.
Dostların əlində bir nemət görüb təəccüblənəndə de: Allahu əkbər.
Əgər gözün dəydisə və həmin şəxs zərər çəkdisə dərhal dəstəmaz al.
Gözündə təsir olan insan çalışsın ki, xoşu gələn şeylə rastlaşanda gözünü ona zilləməsin, dərhal gözünü qaçırsın.
Bütün bunlar İslamın tövsiyələridir. Gözündə təsir olanlar buna əməl etməlidir. Gözünün təsirinə özü və başqaları şahid olanlar yuxarıdakı göstərişlərə əməl etməlidirlər.

# Üçüncü pəncərə

Gözün müsbət enerjisinin gücləndirilməsi
Söhbətimizin bu hissəsinə Hafizin qəlbə yatan bir beyti ilə başlayaq:
Uzun illər könül came-cəm istədi,
Özündə olanı biganədən istədi...
Hafizin bu beyti insanın potensial imkanlarına işarədir. Qədim zamanlarda gözdəyməyə qarşı dini göstərişlər bəyan olunub. Söhbətimizin bu yerində insanın potensial imkanlarından, böhranlardan keçmə məharətindən, eləcə də gözdəymənin qarşısını alma yollarından danışacağıq.
Məsumlar insandakı göz nemətinin böyüklüyündən danışıb. Gözün nuru ilə yanaşı qəlbin nurunu gücləndirmək tövsiyə olunub. Olsun ki, bu göstərişlər gözün zərərli təsirinin qarşısını alır. Dində Kəbəyə, Qurana, ata-ananın simasına baxmaqın xüsusi hikmətlərə malik olduğu bildirilir.
Əvvəlcə qeyd etdiyimiz sualı bir də təkrarlayaq: Yalnız başqaları bizə problem yaradır, yoxsa bizdə gözümüzlə başqalarına problem yaradırıq? Rəvayətlərdən alınan nəticə budur ki, bütün insanların gözündə dağıdıcı enerji var. Amma bu enerji dalğasının uzunluğu fərqlidir. Bəs dağıdıcı enerjini necə zəiflətmək olar? Eləcədə müsbət enerjini necə gücləndirmək mümkündür?

**İslamda dəyərli baxış**

Qurana, həzrəti Peyğəmbərin (s) nurani kəlamlarına baxmaqla ruhumuza təravət verə bilərik. Həzrət buyurur: “Gözlərinizi Quran ibadətindən məhrum etməyin.” Həzrətə sual veriləndə buyurdu ki, Qurana baxmaq, bu barədə düşünmək və ibrət götürmək ecazkar təsirlərə malikdir." (“Muhəccətul-Bəyza”, c. 2, s. 231)
Gözünün mənfi təsirindən ehtiyatlanan əzizlər həzrət Peyğəmbərin (s) göstərişlərinə itaət etməklə bu mənfi enerjinin qarşısını ala bilərlər. Qurana baxmaqla qəlbi səfalandırmaq insana müsbət enerji verir.
Allah qorxusundan və İmam Hüseynin (ə) məzlumiyyətinə ağlamaq
İnsan ağladığı zaman gözündən yaş gələn yeganə varlıqdır. Göz yaşı xüsusi bir maddədir. İnsanın nə üçün ağlaması göz yaşının tərkibinə təsirlidir. Məsələn, qadınların göz yaşı ilə kişilərin göz yaşının tərkibi arasında fərq var.
İnsan müxtəlif səbəblərdən ağlaya bilər. İnsan ağlamasına sevinc, ayrılıq, təəssüf, peşmançılıq, qəzəb, intizar, eşq, yaxınlardan ayrılıq, bəzən də soğan soymaq səbəb ola bilər. Bütün bu göz yaşlarının tərkibi fərqlidir. İslamda göz yaşı ilahi rəhmət nişanəsi kimi tanıtdırılır. Həzrəti Peyğəmbər buyurur: “Allah öz bəndələrinin qəlbinə mərhəmət vermişdir. Eyni zamanda Allah mərhəmətli bəndələrinə rəhm edir.” (“Sonuncu Peyğəmbər”, c. 6, s. 34)
Göz yaşları arasında ən dəyərli göz yaşı Allah qorxusundan ağladığın zaman gələn göz yaşıdır. Ən ağır göz yaşı fəzilətlərdən məhrum olmaq səbəbindən peşmançılıq çəkəç insanın göz yaşıdır. Ən dəyərli göz yaşı şəhidlər ağası İmam Hüseyn (ə) üçün ağlayarkən gələn göz yaşıdır.
Araşdırmalar göstərir ki, yerində ağlaya bilən insanlarda mədə və on iki barmaq bağırsaq yarası xəstəliyi nadir hallarda müşahidə edilir. Asanlıqla ağlayan insanların ürəyində problem olmur, ruhları təravətli olur. Digər tərəfdən insan ağladığı zaman onun bədənindəki zəhərli maddələr xaric olur. Bu zaman zərərli baxışlarda, enerjilərdə aradan qalxır. Buna görə də daş qəlbli insanların gözündə mənfi enerji güclü olur. Deməк, İmam Hüseynə (ə) ağlamaqla gözümüzü zəhərli enerjilərdən xilas edə bilərik.

**Diqqəti cəlb etməmək orta həddi gözləmək**

İslam təlimlərində insanın gözəllik istəyinə xüsusi diqqət yetirilir. Müsəlmanlar paklığa, öz gözəlliyinə diqqət yetirməyə çağırılır. İslam təlimləri müsəlmanı pintilikdən, səliqəsizlikdən çəkindirir. Həzrət Peyğəmbərin (s) gözəlliyə diqqət verməsi rəvayətlərdə geniş yer alıb. Həzrət özü evdən çıxanda və ya bir şəxslə görüşə gedəndə saçlarını darayar, özünü səliqəyə salar, hətta simasını səliqəyə salarkən

qabda suya baxardı. Həzrət buyurur: “Allah gözəldir və gözəllikləri sevir. Allah bəndəsində öz nemətinin əsərini görəndə razı qalır. Bir insan özünü yoxsul göstərəndə Allah qəzəblənir. (“Kənzul-Ummal”, h. 17166)
Bəzənmək dedikdə səliqəli, pak olmaq, ətirlənmək nəzərdə tutulur. Amma bu insanın özünü gözə soxması, diqqəti cəlb etməsi üçün deyil. Bəzi insanlar ətrafdakı insanların diqqətini cəlb etmək üçün qiymətli libaslar geyinir, qiymətli bəzək əşyalarından istifadə edir. Bəli, bu sahədə ifrata varanlar var. Təfrit yolunu gedənlər isə əksinə gözdəymədən qorxaraq özünü yoxsul göstərməyə çalışır, hətta tez-tez imkansızlıqdan gileylənirlər. İslam bunu da bəyənmir. Özünü cəmiyyətə göstərməyi adətə çevirən insanlar şeytanın tələsinə düşüb. Modern dünyamızda bütün təbliğat vasitələri insanları cəmiyyətə gözəl şəkildə çıxmağa çağırır. Amma burada məqsəd dəbdəbəçiliyi, kübarlığı yaymağdır. Modern dünyanın gözəlliyə çağırışı ilə İslamın gözəlliyə çağırışı arasında yerlə göy arası fasilə var. Əgər İslamın çağırışı cəmiyyətə müsbət enerji verməkdirsə, modern dünyanın çağırışı başqalarını qıcıqlandırmaqdır. Bəziləri də bir məsəli özlərinə şüar ediblər: “Palaza bürün ellə sürün.” Bunu başqa şəkildə də ifadə edirlər. Deyirlər ki, rüsvay olmaq istəmirsənsə camahat gedən yolu get. Bu gün dünyada israfçılıq ifrat həddə çatıb. İnsanlar nəyin bahasına olursa olsun ətrafdakılardan fərqlənmək, diqqəti cəlb etmək istəyirlər. İnsanların qazancı, maddi durumu onların geyimi, zahiri görkəmindən çox aşağı olur.
Belə bir nəticə çıxarırıq ki, İslam buyurduğu kimi, ən gözəl yol orta yoldur.
Orta yolu tutan, öz zahiri görkəmi ilə diqqəti cəlb etməyən insanlar gözdəymədən də amanda qalır. Deməк sağlam həyat tərzinin şərtlərindən biri mötədillik, orta həddi gözləməkdir. İstər geyimin, istər ev-eşiyin, istər avtomobilin orta səviyyədə olması insanı zərərli baxışlardan müdafiə edir. Biz Allahın istədiyi həddə gözəlliyə riayət etməliyik. İmam Sadiq buyurur: “Bir insan gözəl şəkildə evdən xaric olursa “Fələq” və “Nas” surələrini oxusun ki, ona zərər toxunmasın. “Məuzəteyni” oxusa Allahın izni ilə zərərli baxışdan amanda qalar.
Bizə tövsiyə olunur ki, gözün zərərli enerjisindən qorunmaq üçün Əllərimizi qunutda olduğu kimi üzümüz qarşısında tutaq “Həmd”, “Tövhid”, “Fələq” və “Nas” surələrini oxuyaq sonra əllərimizi üzümüzə çəkək. (“Məfatihul-Cinan”, s.1006)
İnsanların bir çox problemlərinin kökü onların özünü göstərmək həvəsindədir. Bəziləri sanki cəmiyyətin diqqətini cəlb etmək üçün yaşayır. Belə insanlar həqiqi xoşbəxtliyin ləzzətini bilmir. Çünki onların görkəmi başqalarında həsəd hissi yaradır, eyni zamanda həmin insanlar üçün problemlər ortaya çıxarır. Buna görə də ətrafdakı insanları təhrik edən işlərə yol verməməliyik. Özümüzün, ailəmizin, övladlarımızın sağlamlığı üçün mötədilliyi gözləməliyik.

## Düşüncədə müsbət surət yaratmaq

İnsanın mənfi düşüncələrə təslim olması onu inkişaf və uğurdan saxlayır. Bütün müvəfəqiyətsizliyimizin səbəbini bəd nəzərdə axtarmaq düzgün deyil. Biz düşüncəmizi müsbətə kökləməli, nikbin olmalıyıq. Əgər mənfi düşüncələri özümüzdən uzaqlaşdıra bilsək həqiqi səadətin ləzzətini dadarıq.
Qurani məcid behişt gözəllikləri, behişt libasları, behişt meyvələri, behiştdəki şəraitdən danışmaqla insanları gözəl həyata həvəsləndirir. Quranın bu sahədəki buyuruqları insan təsəvvüründə müsbət surət yaradır. Allah-Taala Quranda iman əhlinə müjdə verir. Bu müjdələr insanı ümidsizlik, bədbinlikdən uzaqlaşdırır.
Deyilənlərdən belə bir qənaətə gəlirik ki, bir çox insanlar özləri mənfi enerji istehsal edirlər. Mənfi düşüncələrə qapılmaq, özünü bu düşüncələrə əsir etmək ən böyük bədbəxtçilikdir. Həyatda uğur qazanmaq üçün düzgün müdiriyyətə ehtiyac var. İnsan öz həyatını, ailəsini, işini düzgün idarə etməlidir. Bu sırada ən təsirli sahələrdən biri insan düşüncəsidir. Əgər insan öz düşüncəsini düzgün idarə edə bilməsə müvəffəqiyyət qazana bilməz. Düşüncəsini idarə etməyi bacaran insan mənfi enerjilərdən də xilas ola bilər. Bəli, müsəlman nikbin və qədirdan olmalıdır. O gələcəyə ümidlə

baxmalı, ixtiyarında olan nemətlərə görə şükür etməlidir. Xoşbəxtliyin ilk şərti belə bir ruhiyyədir. Belə bir ruhiyyə insan sağlamlığına müstəsna təsir göstərir. Allah təvəkkül edək ki, bizi həmişə görür və bizim çağırışlarımıza cavab verərək, ehtiyaclarımızı aradan qaldırır.

## Əqiq və firuzə daşın təsiri

Şübhəsiz ki, varlıq aləmi nizamlıdır və öz hərəkəti ilə müəyyən vəzifələr yerinə yetirir. Yer üzündə və yerin altında olan nemətlər boş yerə yaradılmayıb. Onların hər birinin hikməti var. Bu sırada mədən daşları da yer alır. Mədən daşlarının insan orqanizminə müalicəvi təsiri var. Mədənçi mütəxəssislər Allahın bu nemətləri barədə heyrətamiz məlumatlar verirlər. Onlar iddia edirlər ki, firuzə canlıdır. Əqiqdə də belə bir xüsusiyyət olduğunu bildirirlər. (Daşların möcüzəsi)
İnsanlar bəşər tarixi boyu daşların xüsusiyyətlərindən faydalanıb. İnsanlarda qədim dövrdən belə əqidə olun ki, daşlar mənfi enerjini uzaqlaşdırır. Hətta daşların şeytanları qovduğu da bildirilir. İmam Sadiq (ə) buyurur: “Əqiq daş hər bəla və hadisədən hifz edir.” (“Məfahitul-Cinan”, s.1006)
Həzrət Əli (ə) buyurur ki, barmağınıza Yəmən əqiqindən qaşı olan üzük salın. Bu şeytan hiylələrini insandan uzaqlaşdırır.” (“Üsuli-Kafi”, c. 6, s. 472)
İmam Baqir (ə) buyurur: “Barmağına əqiq üzük salan insan onu əlindən çıxarana qədər Allahın himayəsindədir.” (Həmin mənbə)

Amma daşların gözdəymənin qarşısını alması ilə bağlı hədislərlə rastlaşmırıq. Qeyd olunur ki, bir çox mənfi enerjilər qeyb oxlarıdır. Bunları bəla kimi yada salırlar. Bəşər düşüncəsi tarix boyu mənfəətə çatmaq, zərərdən uzaqlaşmaq üçün yollar axdarıb. Bu məqsədlə İbrahim dinlərinə üz tutulub. Əqiq, Firuzə, Nəcəf dürrü müqəddəs daşlardan sayılır. Qədim dövürdə müxtəlif xalqlar bu daşlardan qoruyucu vasitə kimi istifadə ediblər. Firuzə haqqında deyiblər ki, bu daş mənfi enerjini dəf edib, müsbət enerjini özünə çəkir. Olsun ki, bu sahədə də ifrata varmalar mövcuddur. Müəllifin araşdırdığı sahələrdən biri də qədim tibdir. Qədim tibdə daşların təsirindən istifadə olunur. Olsun ki, yuxarıda deyilənlər də buna işarədir.
Nəticə alırıq ki, Əqiq, Firuzə, Nəcəf dürrü olan üzük və ya boyunbağıdan istifadə etmək qəm-qüssəni uzaqlaşdırır, duanın qəbuluna səbəb olur, insana ruzi gətirir. Allahın izni ilə bu daşların mənfi enerjiyə mane olduğu bildirilir. Hər halda ilahi nemət olan bu daşların müsbət təsirlərindən faydalanmaq lazımdır.

## Sədəqə bəlaların qarşısını alır

İslam təlimlərində sədəqə yer və göy bəlalarının qarşısını alan amil kimi göstərilir. İslam sədəqəni insan üçün ən mənfəətli ticarətə bənzədir. Sədəqə verən insan bunun müqqabilində qat-qat mənfət əldə edir. Həzrəti Peyğəmbər (s) buyurur: “Gecəni sübhə çıxdıqın zaman sədəqə ver, gecənin bəlası səndən uzaq olsun.” (“Məfatihul-həyat”, s. 547) Həzrəti Peyğəmbər (s) başqa məqamda buyurur: “Allah sədəqəyə xatir insandan yetmiş növ pis ölümü uzaqlaşdırar. (“Məfatihul-Həyat”, s. 550)
Maraqlıdır ki, İslamda başqalarına kömək etmək, susuza su vermək, insanlara məhəbət göstərmək, elm öyrətmək, heyvanlara qayğı göstərmək sədəqə nümunəsi kimi qeyd olunur. Nəticə budur ki, mənfi enerjisinin qarşısını almaq üçün ən təsirli yollardan biri sədəqə verməkdir. Sədəqə bəlaları uzaqlaşdırır, zəhərli baxışları təsirsizləşdirir, səssiz güllə kimi insanı hədəfə almış bəlaların qarşısını kəsir.

# Millətlər arasında ənənələr

Söhbətimizin əvvəlində qeyd etdik ki, Əhli-beyt (ə) məktəbində zəhərli baxışlardan uzaq olmaq yolu zikrdir. Zikr və duada sehr və cadu kimi pisliyi zərərsizləşdirmək gücü var. Quran oxumaq, dua və minacat, təsbih və təmcid insanı mənfi enerjilərdən qoruyur. Qədim dövrlərdən insanlar arasında belə ənənələr olub. Hər halda dini mənbələrdə verilən tövsiyələr daha əhəmiyyətlidir. Amma olsun ki, müxtəlif xalqların bu sahədəki ənənələri də hikmət sahiblərinin tövsiyəsi əsasında formalaşıb. Zaman ötdükcə buna xurafatların əlavə olunması mümkündür. Tarix boyu insanların gözdəymədən çəkinməsi və buna qarşı tədbirlərə əl atması tamamilə əsassız ola bilməz. Əlbəttə ki, bu ənənələrə xurafatlar da əlavə edilib.

# Müxtəlif tüstülərin təsiri

Asiya və yaxın şərqdə gözdəymənin qarşısını almaq üsulları arasında ən məşhurlarından biri Esfənd adlanan bitkinin toxumlarını yandırmaq, tüstüsünü havaya yaymaqdır. Bəziləri bunu xurafat hesab edir. Bəziləridə Esfəndin təsirinə inanır və gözdəymənin qarşısını almaq üçün Esfənd yandırır. Müəlif qədim tibb sahəsini araşdırdığı üçün bu mövzu ilə bağlı müəyyən məlumatlara malikdir. Esfəndin müalicəvi, tibbi faydaları barədə həzrət Peyğəmbər (s) və məsum İmamlardan (ə) rəvayətlər var. Esfənd də belə bir təsir olduğu düşünülür. Esfənd tüstüsü gözün mənfi enerjisini zəiflədir.

**Espənd tüstüsü xurafat deyilmi?**

Şərq ölkələrində qədim dövrlərdən Espənd məşhur bir bitkidir. Bu bitkidə şəfa verici qüvvə olduğuna inam var. Bəzi ölkələrdə, şəhər və kəndlərdə insanlar bu bitkini evdə saxlayır. Peyğəmbərin (s) buyruqlarında da Espənd yada salınır. Həzrət buyurur: "Hər Esfənd yarpağı və toxumuna bu yarpaq və toxum çürüyənə qədər bir mələk müvəkkildir." Başqa bir məqamda Həzrət (s) buyurur: "Espəndin kökü, budaqları, qəm qüssəni aradan qaldırır, sehrin qarşısını alır. Onun toxumunda yetmiş dərdə dərman var. Espəndlə dərdlərinizə çarə qılın." ("Biharul-Ənvar", c. 59, s. 239) Nəql olunmuş rəvayətlərdə Espəndlə yanaşı Kondur adlanan bitkinin də adı çəkilir. Rəvayətlərdə bu bitkidən necə istifadə olunması barəsində danışılmır. Onun yandırılıb tüstüsünün havaya verilməsi qeyd edilmir. Bəzi rəvayətlərdə bildirilir ki, Espənd insan qəlbinin nurunu gücləndirir, düşüncəni artırır, hikmət gətirir. Qədim dövrlərdən havanı təmizləmək üçün də Espənd yandırılıb. Esfənd tüstüsünün zərərli maddələri öldürdüyü bidirilir. Gözdəyməyə qarşı bu bitkidən istifadə olunması yaxşı olardı. Rəvayətlərdə qeyd olunan "Nuşrə" sözü aradan qaldıran mənasını verə bilər. Lüğət kitablarında bu söz barədə deyilir ki, bu müalicə əhəmiyyətli ovsundur. Bir şəxsə cin toxunubsa "nuşrə" deyirlər ki, cinlər ondan uzaqlaşsın. ("Lisanul-Ərəb", c. 5)
Əlmüncətdə yazılır ki, "nuşrə" bəla və nigarançılıqları uzaqlaşdıran ovsundur. Bu deyilənlər Espəndin də təsirini təsdiqləyir. Espənd tüstüsünün gözdəymədən qoruması ilahi nemətdir. Qeyd etdik ki, rəvayətdə onun tüstüsü barədə nəsə deyilmir. Amma bu barədə ənənələrin çoxluğu belə bir təsəvvür yaradır ki, Espənd tüstüsünə etiqad əsassız deyil.

Qeyd edək ki, insanlar Esfəndin kökünü, budağını, yarpağını və dənəsini evdə saxlayır, divardan asırlar. Digər tərəfdən Esfənd tüstüsündən alınan nəticə də düşündürücüdür. İnsanlar bununla psixoloji gərginlikdən, baş ağrılarından qurtulurlar. Bu rəcrübədə sübuta yetib. Nəticə bu olur ki, Esfəndin kifayət qədər faydaları var və müxtəlif şəkillərdə istifadə oluna bilər. Qəm-qüssəni aradan qaldırmaq, sehri zərərsizləşdirmək üçün də Esfənd yandırmaq təsirli sayılır. Əlbəttə ki, dualar daha təsirlidir. İstənilən sahədə, istənilən növ xürafat təhlükəli və dağıdıcıdır. Amma biz fəlsəfəsini bilmədiyimiz hər hadisəni xürafat adlandıra bilmərik. Biz xürafatla gerçəklik arasında dəlillərimizin olmaması əsası ilə sərhəd qoya bilmərik. Hadisəni əvvəlcə tam şəkildə örgənmək, yalnız bundan sonra dəlillər əsasında

xürafat adlandırmaq olar. Təbii ki, Esfənd yandırmaqda da xürafat əlamətləri ola bilər. Amma prinsipcə bu işi xürafat saymaq düzgün deyil. Xurafatın müxtəlif məqsədləri ola bilər. Məsələn Əbu Hüreyrənin Məkkədə soğan yemək barədə rəvayəti böyük qazanca hesablanmış bir rəvayət idi. Amma çox ucuz qiyməti olan Esfəndin yandırılmasında hansısa iqtisadi maraqların gizlənməsini iddia etmək məntiqi deyil.

**Ud yandırmağın xüsusiyyətləri**

Ud adətən Hindistanda istehsal olunur. Dünyada Hindistan udu məhşurdur. Ud ətirli çubuqlardan, ağac qabıqlarından, otlardan, toxumlardan, kötüklərdən hazırlanır. Ud da Esfənd kimi neçə min illərdir istifadə olunur. Uddan həm də havanı ətirləndirmək üçün istifadə olunur. Təbii ki, Ud tüstüsünün pislikləri uzaqlaşdırdığına da etiqad var. Xalis ud toz və ya yağ şəkilində alıcılara çatdırılır. Müsəlmanlar arasında da uddan istifadə edən var. Ərəb ölkələrində əsil udun qiyməti yüksəkdir. Beləcə, ud ətirli bir maddə olaraq insan beyninə müsbət təsir göstərir, yorğunluğu aradan qaldırır. Udun mənfi enerjini uzaqlaşdırmasına da inananlar var. Botaniklər, təbiətşünaslar udun müsbət təsirlərini təsdiqləyirlər. Sünnə mənbələrində həzrət Peyğəmbərdən (ə) Hind udunun xüsusiyyətləri barədə hədis nəql olunur. Ümmi Qeys deyir: “Övladlarımdan birinin boğazağrısı var idi. Peyğəmbərin hüzuruna getdim. Buyurdu ki, hind Udundan istifadə edin, bu çubuqda yeddi müalicəvi təsir var…”

## Duzun bədnəzərə təsiri

Hazırda mənfi enerjilərin, bu qəbil bəlaların qarşısını almaq üçün araşdırmalar aparılır və biliklər artır. İnsnalar evdə və işdə aram mühit yaratmaq üçün rənglərdən, bitkilərdən istifadə edirlər. Bunlardan biri də insanın yaşadığı mühitdə duz saxlamasıdır. Dini mənbələrdə bu barədə məlumatla rastlaşmırıq. Amma İslam tibbində duzun xüsusi yeri var. Düz qoruyucu təsirə malikdir, qidanın xarab olmasının qarşısını alır. Qida duzlandıqda zərərli həşəratlar da ondan uzaq olur. Həzrət Peyğəmbər (s) həzrət Əliyə (ə) buyurur: “Ya Əli (ə) yeməyə düzla başla, yeməyi duzla başa çatdır. Hər kim bu işi görsə 72 bəladan amanda qalar və o bəlalardan biri divanəlikdir. (“Biharul-Ənvar”, c. 63, s. 395)
İmam Sadiq (ə) buyurur: “Əgər insanlar duzun təsirini bilsəydilər xəstələrini yalnız duzla müalicə edərdilər.” (Həmin mənbə)
Belə bir qənaətə gəlirik ki, duzun xalq arasında geniş yayılmasının bir səbəbi onun müalicəvi təsiridir. Müasir elmi araşdırmalar təsdiqləyir ki, evdə duz daşı saxlamaq mənfi enerjiyə mane olur. Müasir tibb uzun illər duza qarşı olub. Amma son vaxtlar duz haqqında deyirlər ki, duz dostluğu sübuta yetmiş düşməndir.
Tapıntılar və təcrübələrin nəticələri
Dini mənbələr və təcrübələrdən bir sıra nəticələr əldə olunub. Müxtəlif xalqlar arasında təcrübədə sübuta yetmiş həqiqətlər var.
1.Gözdəymə həqiqətdir;
2.Başqalarının bəd nəzəri bizə qeybi şəkildə şüalanır;
3.Başqaları da bizim mənfi baxışlarımızdan təsirlənir;
4.Bəd nəzərin səbəbi təkcə paxıllıq və düşmənçilik deyil;
5.Mənfi enerjili baxışın yaranma səbəblərindən biri təəccüb, yaxınların sevgisi ola bilər;
6.İnsanlardan əlavə cinlərin də mənfi enerjisindən təsirlənirik;
7.Gözü dəyən insanı pis niyyətinə görə ittiham etmək olmaz. Bu ədavət yaradır.
8.Biz bütün uğursuzluqlarımızı gözdəymənin ayağına yaza bilmərik. Bir çoxları işdə təlaş göstərmir, tənbəllik edir və bunu gözdəymə ilə əlaqələndirir.
9.Gözdəymənin təsiri baxışın bir nöqtəyə yönəlməsi ilə əlaqəlidir;
10.Gözdəymə düşüncə ilə bağlı daxili qüvvələrdən qaynaqlanır, göz sadəcə bir vasitədir.

**Bilirdinizmi ki, göz yaşı şordur?**

Qeyd etməliyik ki, gözün şorluğu ilahi ədalətlə zidd deyil. Varlıq aləmində bütün hadisələrin hikməti var. Allah insanlara enerji verib. Bu enerji mənfi yolda sərf olunursa diyə bilmərik ki, insanların gücü Allahın ədalətinə ziddir.

# Son söz

Qurani-Kərimdə buyrulur ki, təqvalılar qeybə inanan kəslərdir. (Əlləzinə yuminunə bil-ğəyb) Möminin xüsusiyyətlərindən biri budur ki, maddi dünya divarlarını aşıb qeyb dünyasına baxa bilsin. Mömin insan bu addımı ilə dünyanın kiçikliyini, axirətin genişliyini dərk edir.

Qeyd etdiyimiz ayədə Allahın pak zatına, vəhyə, qiyamət gününə, mələklərə imanla yanaşı qeybə iman zikr olunur. Mömin qeybə inanmalıdır. (Təfsiri-Nümunə, c.1, s.72)

Elmlərin ciddisi, düşüncəmizin əsaslısı təcrübi elmlərdir. Amma bu elmlər də nöqsanlardan amanda deyil. Əgər təcrübi elmlərdə nöqsan varsa, qeyri-təcrübi elmlərdə də bu halla rastlaşa bilərik. ("Təfsirul-Mizan", c. 1, s. 60)

İnsan fitrəti ilahi nurla çulğaşıb. İnsanlar zatən Allaha məhəbbətlidir. İlahi varlığa inam insanın fitrətində var. Təəssüf ki, bu etiqad bəzən təhrifə məruz qalır, insan həqiqi məbudu tapa bilməyib günəş və ya aya sitayiş edir. Bəzən də özü üçün bütlər yaradır.

Qeyblə bağlı hadisələr heç zaman xurafatdan amanda qalmayıb. Gözdəymə qeyblə bağlı hadisə olduğundan bu hadisəyə də xurafi fikirlər qatılıb. Amma gözdəymə mövzusunda xurafatın yer alması bu hadisənin həqiqətini rədd etmir.

Nəticə budur ki, Əhli-beyt (ə) məktəbində ən böyük dərmanlardan biri Allah zikridir. Kim əzəmətli və hikmət sahibi olan Allahı yada salsa, "fəzkuruni uzkurkum" ayəsi əsasında Allah da onu yada salar. ("Bəqərə", 152) İnsan Allahı zikr etməklə güc tapır. O bu güclə həyatdakı mənfi dalğalara qalib gəlir. Digər tərəfdən Allahı zikr edən insan Allaha təvəkkül edib, işlərini ona tapşırır. Zikr edən insan özünü Allahın rəhmət ağuşuna atır, Allahı yada salmaqla qaranlıqları yarıb keçir, zəhərli baxışları arxada qoyur. Xoşbəxtlikdən bu zəhərli oxlar çox vaxt bilmədən yaydan çıxır. Hələki şeytanlar bu təhlükəli dalğaları gücləndirə bilməyiblər.

Etiqadlı insanların vəzifəsi budur ki, qeyblə bağlı bəsirətlərini gücləndirsinlər, təbiətüstü dünya ilə əlaqələrini qırmasınlar. İnsan qeyb aləminə inananda güclənir. Hazırda bu sahədə araşdırma mərkəzləri fəaliyyət göstərir və belə mərkəzlər genişlənir. Çünki, qeybə iman zəruri olduğu kimi, gizli qüvvələrə müdriyyət də zəruridir. Bu mərkəzlərdə insan malik olduğu enerjiyə müdriyyətə yiyələnir.

Pərvərdigara! İşimizi xoşbəxtliklə tamamla. Bizə mərifət və Allahpərəstlik yolunu göstər. Qəlbimizdə şeytanın nüfuzuna yol vermə. Öz məhəbbət alovunu qəlbimizdə şöləlləndir. Xüdpəsəndlik bəlasını eşq alovunda yandır. Səndən başqasını görməyək, Səndən başqasını istəməyək, səndən başqasına könül verməyək.

Ey Rəbbimiz! Əgər öz qeyb əlinlə aradakı qalın pərdələri götürməsən Səndən uzağıq. Bu pərdələri qaldır ki, ömrümüzün qalan günlərini faydalana bilək.

Əsərin məqbul sayılacağına ümüd edirik. Onun qüsurlarını etiraf edirik. Xüsusi ilə metafizika mövzusunda söhbətlərdə nöqsanlar olması mümkündür. Bu mövzuda ayrıca kitab olmaması, qələmin nöqsanları özünü göstərdi. Bu sahədə nəzər sahiblərindən xahişim budur ki, böyüklük göstərib bizi öz tövsiyələrindən bəhrələndirsinlər. Kitabla bağlı fikirlər və təkliflər bizə göndərilərsə minnətdar olarıq.

Əssəlamu ələyna və əla ibadillahis-salehin.